www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 avqust 2016-cı il Çərşənbə axşamı № 173 (6484) Qiymət 60 qəpik

**Xəbər**

## Gülər Əhmədova Azərbaycandan getdi

yazısı səh.3-də

**Gündəm**

### "9 nəfərə saxta mandat verilməsəydi, Müsavat başqanı indi başqası idi"



**Əlövsət Sadıxlı:** "Yeni Müsavat"la bağlı qalmaqalda bu adam özünün islaholunmaz intriqant olduğunu bir daha təsdiq etdi"

yazısı səh.7-də

### Aprel şəhidinin xatirəsinə laqeydlik şəhid atasını insult etdi

Raquf Orucovun ailəsi narazılıq edir, rəsmi qurumlar isə buna əsas görmür

yazısı səh.13-də

### ANS ASAN-laşdırılır iddiasına cavab gəldi

yazısı səh.6-da

### Ərdoğan Yeni Qapıda Yeni Türkiyənin təməlini atdı

yazısı səh.4-də

### Eldar Mahmudovun daha bir kadrı "vuruldu"

yazısı səh.6-da

### "7 avqust İstanbul mitinqi Türkiyənin tarixinə qızıl hərflərlə yazılacaq" - ekspertlər

yazısı səh.8-də

### Faizə pul verən deputata qarşı yeni sensasion ittihamlar

yazısı səh.10-da

### Bu gün Ərdoğanla Putin arasında tarixi görüş olacaq

yazısı səh.9-da

### Məşədi Natiqin ev dustaqlığı daha 3 ay uzadıldı

yazısı səh.13-də

### Rusiyada deputatlığa namizəd azərbaycanlı iş adamı həbs oluna bilər

yazısı səh.2-də

### Ərəb turistlər xidmət sektorumuzu necə xilas etdilər?

yazısı səh.15-də

## Azərbaycan daha bir mötəbər tədbirə ev sahibliyi etdi

# PREZİDENTLƏRİN TARİXİ BAKI SAMMİTİ: YENİ DÖNƏM, MÜHÜM MESAJLAR...

Azərbaycan, Rusiya və İran dövlət başçıları paytaxtımızda ilk dəfə üçtərəfli formatda bir araya gəldilər; Bakı görüşündə regionun da taleyinə təsir edəcək yeni ortaq layihələrin təməli qoyuldu; İlham Əliyev Qarabağa görə Putinə təşəkkür etdi, Putindən Qarabağ vədi gəldi...



yazısı səh.3-də

## Kremlin yeni Avrasiya projesi - Ermənistanla sərhədlər açılır?

Rusiyanın regionda artan fəallığı yeni imperativlər ortaya çıxarıb; Moskva bütün iqtisadi və geosiyasi layihələrin episentrində yer almağa can atır, Bakı və Ankara da maraqlar hədəfində...

yazısı səh.9-da



*Rauf Arifoğlu:*

### "Bİz Tayyİb Ərdoğanı nİyə sevdİk..."

yazısı səh.5-də



### Akİf Çovdarov İcra başçısının 800 mİn manatını necə qaytaracaq?

yazısı səh.10-da



### Nİgar Yaqublu Nİgar Həzİ oldu

yazısı səh.2-də

YENİ MÜSAVAT
N 173 (6494) 9 avqust 2016



## Rüfət Səfərova rüşvət verdiyi iddia edilən şəxslər: bələdiyyə sədri, şöbə müdiri...

**Bakı Ağır Cinayətlər Məhkəməsində Rüfət Səfərovun cinayət işi üzrə məhkəmə prosesi keçirilib. Musavat.com xəbər verir ki, R.Səfərov ifadə verərək, ittihamı qəbul etmədiyini bildirib.**

“Bu, ittiham aktı yox, torba aktıdı. Çox qeyri-peşəkarcasına hazırlanıb” - deyə R.Səfərov bildirib. Rüfət Səfərovun işi üzrə keçirilən məhkəmə prosesində ittiham aktı elan olunub. İttiham aktında qeyd edilir ki, Rüfət Səfərov müstəntiq kimi, 2014-cü ildə Zərdabın Əlibəyli kənd bələdiyyəsinin sədri Elçin Xəlilovdan 1000 manat, rayonun Elektrik Şəbəkəsinin məsul işçisi Əlәmdar Abbasovdan 700 manat, Zərdabın Baytarlıq İdarəsinin əməkdaşı Mənsur Pənahovdan 500 manat, Mədəniyyət və Turizm şöbəsinin rəhbəri Eldəniz Abdullayevdən 3000 manat rüşvət alıb.

**İttiham aktına görə, sabiq müstəntiqə bu pullar adları çəkilən şəxslərin barəsində yazılan şikayətlərin rədd edilməsi məqsədilə verilib. Rüfət Səfərov məhkəmədə ifadəsində bildirib:** “Zakir Qaralov özü mənə yaxşı işlədiyimə görə təşəkkür elan edib. Əgər mən rüşvətxor idimsə, niyə təşəkkür edirdi? Görünür, yaxşı rüşvət ala bilməmişəm ki, məni həbs eləyiblər. Ancaq özümü şanslı hesab edirəm ki, məni dövlət çevrilişi, qanunsuz silahlı birləşmə kimi əməllərdə ittiham etməyiblər. Mən qanunsuzluqlara, özbaşınalıqlara etiraz olaraq istefa vermişəm. Bu iş də bununla bağlıdır. Bu adamların bəzilərindən şikayət daxil olub, bir qismi ilə bağlı cinayət işi başlanıb”.

Məhkəmədə rüşvət verdiyi iddia edilən şəxslər də ifadə veriblər. Onların bir hissəsi müstəntiqə rüşvət verdiyini bildirib. Lakin R.Səfərov onların yalan danışdığını deyib. Prosesin davamında R.Səfərovun vəkili Bəhruz Bayramov vəsatət verib. Vəkil rüşvət verdiyi iddia olunan şəxslərin cinayət məsuliyyətinə cəlb olunması üçün xüsusi qərar çıxarılması barədə vəsatət qaldırıb.

Vəsatət təmin edilməyib. Vəkilin ikinci vəsatəti rüşvət verdiyi iddia olunan şəxslərlə bağlı şikayət və cinayət işlərinin aqibəti barədə məlumat almaq istəyi ilə bağlı olub. Bu vəsatət isə təmin olunub.

Məhkəmə prosesi sentyabrın 7-də davam edəcək.

Qeyd edək ki, R.Səfərov Zərdab Rayon Prokurorluğunun müstəntiqi vəzifəsindən istefa verəndən sonra rüşvət alma ittihamı ilə həbs olunmuşdu, bir qədər sonra isə ev dustaqlığına buraxılmışdı.

❑ **İ.MURADOV**



## Bu gün də 42 dərəcə isti gözlənilir

**Avqustun 9-da Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi səhər və gündüz arabir güclənəcək Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometerologiya Departamentindən verilən məlumata görə, havanın temperaturunun gecə 24-27° isti, gündüz 34-39° isti olacağı gözlənilir. Bakıda gecə 25-27° isti, gündüz 36-38° isti olacağı gözlənilir.**

Azərbaycanın rayonlarında isə hava əsasən yağmursuz keçəcək, qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 21-26° isti, gündüz 35-40°, bəzi yerlərdə 42° isti, dağlarda gecə 15-20° isti, gündüz 27-32° is-

# Nigar Yaqublu Nigar Həzi oldu

## “Soyadımı öz istəyimlə dəyişdim”

**“Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) həbsdə olan sədr müavini Seymur Həzi ilə ailə həyatı quran Müsavat Partiyası Məclisinin üzvü Nigar Həzi (Yaqublu) nikahdan sonra yaşananlardan danışıb. Musavat.com saytına açıqlama verən Nigar xanım bildirib ki, nikahdan sonra ilk dəfə bu gün həyat yoldaşı ilə görüşəcək.**



“Nikahımıza öncə əngəl yaradılsa da, ailə qurduq. Seymursuz dostlar arasında kiçik məclis keçirdik. Nikahdan sonra ilk dəfə sabah (bu gün -red.) Seymurla görüşə gedəcəyəm. Həbsxana qanunlarını bilirsiniz. Seymurla ya gündə 15 dəqiqə, ya da həftədə 2-3 dəfə danışa bilirəm. Bu, çox qısa zamandır. Nikah olsa da, atamgildə yaşayıram. Seymurla qərarımız belədir. O, həbsdən çıxandan sonra birlikdə harada yaşayacağımız bəlli olacaq. Düzü, bu barədə danışmamışıq. Əsas odur ki, istək olsun. Qalan işlər öz yoluna düşəcək” - o deyib.

**Nigar sosial şəbəkədə soyadını dəyişib “Həzi” etməsinə də münasibət bildirib:** “Soyadımı öz istəyimlə dəyişmişəm. Mənim kompleksim yoxdur. İnsanlar məni Yaqublu olaraq tanıyırlar. Lakin düşünürəm ki, bir xanım ailə qurubsa, soyadını dəyişə bilər. Bu normal haldır”.

**N.Həzi atası Tofiq Yaqublunun mərhum Nərgiz Yaqublunun oğlu Kənanı görməyə getməsindən də söz açıb:** “Atamla anam Kənanı görməyə gediblər. Mən qardaşımla gedə bilmədim. Kənanım boy atıb, kökəlib. Biz onu ancaq fotolarda, videolarda görə bilirik. Əsas odur ki, canı sağ olsun”.

❑ **Könül İBRAHİM**

# Türk mediasından sensasion iddia: həbslərdən qurtulan generallar PKK-ya sığınıb?

**Türkiyədə, 15 iyul hərbi çevrilişinin uğursuzluqla nəticələnməsindən sonra qaçan müxtəlif rütbəli 288 zabitlə bağlı sensasion məlumat yayılıb. Musavat.com-un Türkiyənin “Yeni Şafak” qəzetinə istinadən yaydığı məlumata görə, Türkiyə kəşfiyyatı 60-a yaxın hərbçinin PKK terror təşkilatına sığındığını təsbit edib.**



Qəzetin xəbərinə görə, hərbi çevriliş təşəbbüsünün nəticəsiz qaldığını gördükdən sonra panikaya düşən xuntaçı hərbçilər vaxt itirmədən Türkiyə sərhədlərini tərk etməyə başlayıblar. Aralarında general-mayor (tuğgeneral) rütbəli 3 hərbçinin də olduğu 60 nəfərlik heyət Skorski helikopteri ilə Silopiyə (Şırnak) hərəkət edib.

Qaçan hərbçilərə hərbi çevriliş sırasında gizir Ömər Halisdemir tərəfindən alınmadan vurularaq öldürülən çevrilişçi general Semih Terziyə bağlı Silopidəki xüsusi təyinatlıların bazasında xidmət göstərən heyət kömək edib. Həmin heyət 60 hərbçinin Habur sərhəd məntəqəsindən Şimali İraqa keçməsinə şərait yaradıb.

MİT və Baş Qərargahın təsbitlərinə görə, 3 general və qalan əsgərlər Zahoda PKK-lı terrorçular tərəfindən qarşılanaraq Qəndildəki əsas bazaya götürülüblər.

Türkiyənin müdafiə naziri Fikri Işık hərbi çevriliş cəhdindən sonra 288 hərbçinin fərari statusunda olduğunu bildirib. Onlardan 9-u generaldır. Fərari türk general və admirallar bunlardır: vitse-admiral Mustafa Zeki Uğurlu, general-mayor Mehmet Nail İgid, general-mayor Ali Kalyonçu, kontr-admiral Ayhan Bay, kontr-admiral Nazmi Ekici, kontr-admiral İrfan Arabacı, kontr-admiral Ali Suat Aktürk, kontr-admiral Heyrettin İmran və general-mayor Mehemt Zeki Kıralp.

❑ **Vaqif HÜSEYN**


### “Qaya Mətbuat Yayımı” MMC!

**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**

- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;

- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;

- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;

**Ən başlıcası ayda 26 dəfə nəşr olunan “Yeni Müsavat” - 0.60 AZN və bundan əlavə 2500 adda yerli və xarici nəşrlər.**

- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.

**Telefonla zəng etməyiniz kifayətdir: Bakı şəh. 564-63-45; 598-35-22**

- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.




## Kənan Evren bulvarının adı dəyişdirildi - Dövlət Baxçalı oldu

**Adana şəhər bələdiyyəsinin məclisi 1980-ci il hərbi çevrilişinin müəllifi Kənan Evrenin adını daşıyan bulvarın adını dəyişdirərək Dövlət Bahçeli bulvarı adlandırıb. Musavat.com Türkiyə mediasına istinadla bildirir ki, şəhər meriyasının MHP üzvü olan başçısı Hüseyn Sözlünün rəhbərliyi ilə keçirilən toplantıda belə bir qərar qəbul edilib.**

AKP üzvləri bulvarın adını “15 İyul Demokratiya Şəhidləri” kimi dəyişdirmək istəsələr də bulvarın adının MHP başqanının adını daşıması qərara alınıb.

15 iyul şəhidlərinin adı isə Yüreğir mahalında 20 hektarlıq bir parka veriləcək.

## Rusiyada deputatlığa namizəd azərbaycanlı iş adamı həbs oluna bilər

**Rusiya İstintaq Komitəsi Sankt-Peterburqda yerli qanunverici orqanın deputatı Səyad Əliyevin evində axtarışa başlayıb. Modern.az Rusiya KİV-nə istinadən xəbər verir ki, axtarışlar Azərbaycan əsilli iş adamının etnik cinayətkar dəstə yaratması ehtimal ilə bağlı aparılır.**

Məlumatda bildirilir ki, Leninqrad vilayətinin “Vodokanal” idarəsinin rəhbəri olan Səyad Əliyev Sofiysk küçəsində yerləşən meyvə-tərəvəz bazasında cinayətkar qruplaşmalarla bağlı iş çərçivəsində şübhəli şəxs olub.

Xatırladaq ki, iyunun 20-də Sankt-Peterburq bazarında 27 yaşlı Azərbaycan vətəndaşı Emil Hüseynov 43 yaşlı biznesmen Maarif İsmayılovu güllələyərək qətlə yetirmişdi. Səyad Əliyev 1967-ci il martın 27-də Cəlilabad rayonunun Zopun kəndində anadan olub. Biznes strukturları da olan Səyad Əliyev 2016-cı ildə Rusiya Dövlət Dumasına keçirilən seçkilərdə namizədliyini irəli sürmüşdü.

YENİ MÜSAVAT
N 173 (6494) 9 avqust 2016

# Azərbaycan daha bir mötəbər tədbirə ev sahibliyi etdi

**Dünən Bakıda ilk dəfə olaraq Azərbaycan, Rusiya və İran prezidentləri - İlham Əliyev, Vladimir Putin və Həsən Ruhani arasında üçtərəfli görüş keçirilib. Dövlət başçıları bundan öncə ikitərəfli formatda bir araya gəliblər.**



# Prezidentlərin tarixi Bakı sammiti: yeni dönəm, mühüm mesajlar...

## Azərbaycan, Rusiya və İran dövlət başçıları paytaxtımızda ilk dəfə üçtərəfli formatda bir araya gəldilər; Bakı görüşlərində regionun taleyinə təsir edəcək yeni strateji ortaq layihələrin təməli qoyuldu; İlham Əliyev Qarabağa görə Putinə təşəkkür etdi, Kreml başçısından Qarabağ vədi gəldi...

Öncədən xəbər verildiyi kimi, üçtərəfli görüşdə əsas diqqət nəqliyyat layihələrinə, əsasən də "Şimal-Cənub" dəmiryol xəttinin inşasına yönəldilib. Prezidentlərin Suriya, Əfqanıstan, terrorçuluq və narkotik vasitələrin dövriyyəsinə qarşı mübarizə, iqtisadi əməkdaşlığın dərinləşdirilməsi kimi məsələlərə də toxunacaqları gözlənilirdi.

**"Üçtərəfli sammitin əsas məqsədi ilk növbədə nəqliyyat sahəsində infrastruktur layihələrini irəli aparmaq imkanlarını araşdırmaqdır", - deyə Rusiya prezidentinin köməkçisi Yuri Uşakov görüş öncəsi gündəliklə bağlı verdiyi açıqlamada bildirib (virtualorg.az). Onun sözlərinə görə, söhbət ilk növbədə Rəşt (İran)-Astara (Azərbaycan) dəmiryol magistralının tikintisindən gedir. Bu, beynəlxalq "Şimal-Cənub" nəqliyyat dəhlizinin bir hissəsidir. Uşakov xatırladıb ki, bu layihə 2008-ci ildən müzakirə olunur.**

"Diskussiyalarda Rusiya Dəmir Yolları tərəfindən bəyan edilib ki, şirkət bu layihənin operatoru qismində çıxış edə bilər və buna hazırdır" - Putinin köməkçisi əlavə edib. Bundan əlavə, o, prezidentlərin gündəmində iqtisadi-ticarət sahəsində əməkdaşlığa dair yeni perspektivlərin müzakirəsinin dayandığını da söyləyib. "Əsas diqqət energetika sahəsində əməkdaşlığa yönəldiləcək. Biz hər şeydən əvvəl Xəzərdə neft yataqlarının birgə kəşfiyyatı, işlənməsi və hasilatı ilə bağlı layihələrin reallaşdırılmasına əhəmiyyət veririk" - Uşakov vurğulayıb.

**Ümumiyyətlə, Kreml rəsmisi üç ölkə liderlərinin görüşündə müzakirə olunası çox məsələnin olduğunu deyib.** "Çünki söhbət bir-biri ilə qonşu olan üç ölkədən gedir. Onlar oxşar problemlərlə qarşılaşıb, o cümlədən qlobal iqtisadi böhran, sərhədlərimiz yaxınlığında situasiya, Əfqanıstanla sərhədlər və Yaxın Şərqdə vəziyyət, terrorçuluqla mübarizə və s." - Putinuin köməkçisi qeyd edib.

Bu baxımdan, sammit çərçivəsində regional təhlükəsizlik kontekstində prezidentlərin Qarabağ münaqişəsinin nizamlanmasına da diqqət yetirəcəkləri gözlənilirdi.

***

Qeyd edək ki, İran prezidenti bir gün öncədən Bakıda idi. Rusiya prezidenti V.Putin isə dünən günün ikinci yarısında Azərbaycan paytaxtına gəlib. "Kommersant" nəşrinin yazdığına görə, onunla birgə baş nazirin müavini, hərbi sənaye kompleksini kurasiya edən Dmitri Roqozin, xarici işlər naziri Sergey Lavrov, enerji və nəqliyyat nazirləri Aleksandr Novak və Maksim Sokolov, iqtisadiyyat naziri Aleksey Ulyokayev, habelə Rusiya Dəmir Yollarının vitse-prezidenti Aleksandr Mişirinvə "Rosneft"in başçısı İqor Seçinin paytaxtımıza təşrif buyurub ki, bu da iki və üçtərəfli görüşlərin önəmindən xəbər verən məqam sayıla bilər.

**Putin əvvəlcə azərbaycanlı həmkarı İlham Əliyevlə, sonra isə İran prezidenti Həsən Ruhani ilə görüş keçirib.**

**"Rusiya, Azərbaycan və İran Xəzərdə yeni layihələri müzakirə edə bilər". Bunu Rusiya prezidenti azərbaycanlı həmkarı ilə görüşdə bəyan edib. O qeyd edib ki, bu layihələr energetika və nəqliyyat sahələrini əhatə edə bilər.** "Üçtərəfli formatda görüşün təşkilinə görə sizə minnətdaram, bu da sizin təşəbbüsünüzdür. Bizim doğrudan da bu formatda müzakirə edəcəyimiz məsələlər var" deyən Putin üçtərəfli formatda iqtisadi-ticarət əlaqələrinin diversifikasiyasını da istisna etməyib.

Putin-Əliyev görüşündə ikitərəfli iqtisadi, ticari əlaqələrin mövcud durumu və perspektivləri, əlaqələri daha yüksək səviyyəyə qaldırmaq yolları müzakirə edilib. "Rusiya ilə Azərbaycan arasında əməkdaşlıq strateji tərəfdaşlıq xarakteri alıb. Bu isə əlaqələrin şaxələndirilməsi üçün çox vacibdir" - Kreml başçısı deyib.

**Qarabağ mövzusu da əsas diqqət mərkəzində olub. "Rusiya çalışacaq ki, Dağlıq Qarabağ münaqişəsinin kompromisli və tərəflər üçün məqbul həll variantını tapsın". Bu sözləri də Rusiya lideri Azərbaycan prezidenti ilə görüşdə deyib. O, problemin Azərbaycan və Ermənistan üçün nə qədər ağrılı məsələ olduğunu anladığını bildirib: "Biz çalışacağıq ki, hər iki ölkə kompromisli, lakin hər ikisi üçün məqbul olan həll yolunu tapsın. Bu məsələnin həllində qalib iki ölkənin xalqı olsun, hər iki ölkə hiss eləsin ki, bu çətin məsələni bu günün və gələcək nəslin maraqları çərçivəsində həll edib".**

Öz növbəsində İlham Əliyev Rusiya dövlət başçısına Qarabağ nizamlanmasındakı fəal iştiraka görə təşəkkür edib. O, Rusiyanın münaqişənin həllindəki rolunu xüsusi vurğulayıb və xatırladıb ki, iyunda Sankt-Peterburqda keçirilən görüş bu mövzuya həsr olunub. "Bu prosesdə fəal iştirak etdiyinə görə sizə minnətdaram" - Azərbaycanın başçısı bildirib.

İlham Əliyev onu da bildirib ki, Azərbaycan və Rusiya prezidentlərinin mütəmadi görüşləri strateji tərəfdaşlıq səviyyəsinə yüksəlmiş ikitərəfli münasibətlərin inkişafına yeni impuls verir. "Beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edirik, siyasi dialoq, iqtisadi əlaqələr möhkəmlənir", - deyə o əlavə edib. Azərbaycan prezidenti həmçinin qeyd edib ki, yeni format olan Rusiya, Azərbaycan və İran liderlərinin üçtərəfli görüşü regionda ölkələrin iqtisadi əməkdaşlığının inkişafına və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edəcək.

***

**Daha sonra prezidentlərin üçtərəfli formatda görüşü başlayıb.**

"Bu gün tarixdə ilk dəfə olaraq üçtərəfli görüş keçirilir. Zirvə görüşündə iştirakına görə İran və Rusiya prezidentlərinə təşəkkür edirəm. Bugünkü görüş yeni əməkdaşlığa təkan verəcək". APA-nın məlumatına görə, bu barədə prezident İlham Əliyev prezidentlərin üçtərəfli görüşündə deyib. "Ölkələrimizi sıx dostluq münasibətləri bağlayır, ölkələrimiz bir sıra beynəlxalq təşkilatlarda bir-birilərini dəstəkləyirlər. Qonşularımızla dostluq əlaqələri milli maraqlarımıza uyğundur. Hər iki ölkə Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir", deyə prezident Əliyev bildirib.

Dövlət başçısı bildirib ki, Dağlıq Qarabağ münaqişəsində status kvo qəbuledilməzdir: "Uzun illərdir Azərbaycanın ərazi bütövlüyü pozulub, ölkəmizdə 1 milyondan çox qaçqın və köçkün var. BMT-nin 4 qətnaməsində erməni silahlı qüvvələrinin qeyd-şərtsiz Azərbaycan ərazilərindən çıxarılması əksini tapsa da, bu qətnamələr, əfsuslar olsun ki, yerinə yetirilmir". İlham Əliyev deyib ki, Azərbaycan, Rusiya və İran arasında üçtərəfli əməkdaşlıq regionda sülhün təmin olunmasına kömək edəcək.

**Üçtərəfli sammitin yekununa dair birgə Bakı bəyannaməsi qəbul olunub. "RİA Novosti"nin məlumatına görə, Bakı bəyannaməsində deyilir ki, Azərbaycan, Rusiya və İran nəqliyyat infrastrukturunun, o cümlədən "Şimal-Cənub" dəhlizinin inkişafı üçün tədbirlər görəcək.** "Tərəflər iqtisadi cəhətdən sərfəli və ətraf mühit üçün ekoloji cəhətdən təhlükəsiz olan nəqliyyat infrastrukturunun yaradılmasına yönələn regional nəqliyyat və rabitə imkanlarının inteqrasiyası üçün səylərini dəstəkləmək niyyətindədir. Tərəflər "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi boyunca sərnişin və malların daşınması imkanlarını yaxşılaşdırmaq məqsədilə nəqliyyat-rabitə infrastrukturunun inkişafı üçün effektli addımlar atmaq niyyətindədir", - deyə sənəddə vurğulanır.

**Bəyannamədə həmçinin qeyd olunur ki, rəsmi Bakı, Moskva və Tehran "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin effektivliyini artırılması çərçivəsində dəmir yollarının birləşdirilməsi ilə bağlı yeni layihələr reallaşdırmaq niyyətindədir. Bundan əlavə, Tehran, Bakı və Moskva terrorizm və narkotrafikə qarşı mübarizədə beynəlxalq birliyə əməkdaşlıq təklifi edir.** "Tərəflər narkotik ticarətinə, terrorizmə, ekstremizmə, qanunsuz silah ticarətinə, insan alverinə və kibercinayətə qarşı mübarizə aparmağa qərarlıdır", - deyə bəyannamədə daha sonra deyilir.

Bundan başqa, "tərəflər terrorizmi onun bütün formalarında pisləyir və effektiv əməkdaşlıq üçün ikitərəfli və üçtərəfli fikir mübadiləsinə çağırış edir. Regionda həll olunmamış münaqişələr əməkdaşlığa mane olur. Buna görə həmin münaqişələrin beynəlxalq normalar və prinsiplər əsasında qısa müddətə nizamlanması vacib bilinir".

**Bəyannaməyə görə, tərəflər viza rejiminin sadələşdirilməsi, biznes, turizm və mədəniyyət sahəsində intensiv əməkdaşlıq etmək barədə razılıq əldə edir.**

**Azərbaycan, Rusiya və İran prezidentlərinin növbəti üçtərəfli görüşünün İranda keçirilməsi qərara alınıb.**

❑ Siyasət şöbəsi

# Eks-deputat Gülər Əhmədova müalicə üçün Almaniyaya getdi



**Sabiq deputat Gülər Əhmədova Almaniyaya gedib. Modern.az saytının xəbərinə görə, Gülər Əhmədova müalicə olunmaq üçün hazırda Berlin şəhərindədir.**

Qeyd edək ki, keçmiş deputat bir müddət öncə məhkəmədəki çıxışı zamanı bir neçə xəstəlikdən əziyyət çəkdiyini, talassemiya daşıyıcısı olduğunu söyləmişdi. O, məhkəmədən xaricdə əməliyyat olunmaq üçün ölkədən çıxışına icazə verilməsini istəmiş və buna qismən nail olmuşdu.

G.Əhmədova məhkəmədə onu da bildirmişdi ki, 2001-ci ildən onkoloji xəstəlikdən əziyyət çəkir, 24 yaşında kliniki ölüm keçirib, 2001-ci ildə Moskvada Onkologiya Mərkəzində əməliyyat olunub, ardınca Türkiyədə şüa terapiyası alıb. Daha sonralar deputat olduğu dövrdə də xaricə müalicəyə gedib-gəlib. İyulun 12-də Bakı Apelyasiya Məhkəməsində eks-deputat Gülər Əhmədovanın Azərbaycandan kənara çıxmasına qoyulmuş qadağanın götürülməsi barədə vəsatətə baxılıb və ona üç ay müddətinə Azərbaycan hüdudlarından kənara çıxmasına icazə verilib.

Fəaliyyəti dayandırılmış Azərbaycan Beynəlxalq Universitetinin sabiq rektoru Elşad Abdullayevin yaydığı qalmaqallı videolardan sonra G.Əhmədova deputat mandatından imtina edib. Onun barəsində həbs-qətimkan tədbiri seçilib.

Keçmiş deputat Cinayət Məcəlləsinin dələduzluq, cinayəti bilib xəbər verməmək maddələri ilə ittiham olunub. 2013-cü ildə Bakı Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə o, 3 il azadlıqdan məhrum edilib. Hökmdən narazı qalan keçmiş deputat apelyasiya şikayəti verib. 2014-cü il mayın 5-də Bakı Apelyasiya Məhkəməsinin qərarı ilə G.Əhmədovaya verilən həbs 3 il sınaq müddəti təyin olunmaqla, şərti cəza ilə əvəzlənib və o, azadlığa buraxılıb.

YENİ MÜSAVAT
N 173 (6494) 9 avqust 2016

# Ərdoğan Yeni Qapıda Yeni Türkiyənin təməlini atdı

**Türkiyə taleyüklü tarixi mərhələdən keçir. Qardaş ölkənin dövləti və vətəndaşları öz tarixlərinə yeni şanlı səhifələr yazmaqda davam edirlər. Avqustun 7-də İstanbulun Yeni Qapı ərazisində keçirilən kütləvi mitinq də həmin şanlı tarixi səhifənin növbəti nümunəsi idi. Bu mitinqdən kifayət qədər ciddi nəticələr çıxartmaq mümkündür.**

Məsələ ondadır ki, Türkiyə mənbələrinin məlumatına görə, isti hava şəraitinə baxmayaraq, bu mitinqdə 3 milyondan çox insan toplaşmışdı. Həm də toplaşanlar müxtəlif siyasi-ideoloji dünyagörüşünün təmsilçiləri idilər. Və onların hamısı Türkiyə dövlətinin müdafiəsi, mövcudluğunun qorunması üçün bir araya gəlmişdi.

Önəmli nəticədir. İllərlə Türkiyə cəmiyyəti Qərbə bağlı siyasi mərkəzlər tərəfindən parçalanma, qarşıdurma mühitinə doğru sürüklənməyə çalışıldı. Ancaq son mitinq bu cəhdlərin iflasa uğradığını göstərdi.

Bəli, 7 avqust mitinqi Türkiyənin Qərbdəki bədxahları üçün əsl gözdağı idi. Çünki onlar onilliklər boyu qurduqları oyunların, reallaşdırdıqları ssenarilərin, bir Türk dövlətini içəridən işğal etmək planlarının necə boşa getdiyini öz gözləri ilə gördülər. Və yəqin ki, indi çaşqınlıq, məyusluq içərisindədirlər.

Təbii ki, bu nəticənin ortaya çıxmasında siyasi lider faktoru da böyük önəm daşıyır. Ona görə də, bu tarixi günlərin zəfər payından Türkiyə vətəndaşları ilə yanaşı, dövlətin siyasi liderinin - prezident Rəcəb Tayyib Ərdoğanın da aktivinə yazılmış oldu.

Əslində buna tamamilə haqqı çatır. Hər halda, o, hərbi çevriliş cəhdinin ilk saatlarında, tankların küçələrə hakim kəsildiyi anlarda sərgilədiyi örnək davranışla bu zəfərin əsas müəlliflərindən birinə çevrilmişdi.

Məsələ ondadır ki, həmin anlarda hər kəs ölkədə nə baş verdiyini, nə etmək lazım olduğunu anlamağa çalışdığı halda, Türkiyə prezidenti artıq hərbi çevriliş cəhdinə qarşı konkret addımlar atmağa başlamışdı. Halbuki analoji situasiyalarda siyasi liderlərin tamamilə fərqli davranışlarının da örnəkləri mövcuddur.

Məsələn, adətən hərbi çevriliş cəhdi ilə üzləşən dövlət liderləri ölkədən qaçmağa və ya gizlənərək, qeyri-leqal fəaliyyət göstərməyə üstünlük verirlər. Bu baxımdan, prezident Ərdoğanın da qarşısında 3 seçim variantı var idi: o, ya ölkədən qaçmalı, ya gizlənməli, ya da ki, meydana çıxıb, açıq şəkildə müqavimət göstərməliyid.

Prezident Ərdoğan da məhz 3-cü və özü üçün ən təhlükəli variantı seçdi. Xalqa müraciət etdi, meydanlara çağırdı. Həm də yalnız xalqı tankların qarşına çıxmağa çağırmaqla işini bitmiş hesab etmədi. Özü də öndə oldu, xalqa liderlik etdi.

Təyyarəsinin havada vurulma ehtimalının real olduğunu bildiyi halda, tərəddüd etmədən İstanbula yol aldı. Və bununla da sevənləri ilə yanaşı, əleyhinə olanların da rəğbətini qazandı.



Sübut etdi ki, yalnız tərəfdarlarının deyil, bütün Türkiyənin siyasi lideridir.

Mitinqin belə möhtəşəm olmasının əsas səbəbi də elə bu önəmli faktorla bağlıdır. Çünki siyasi-ideoloji dünyagörüş fərqliliyinə baxmayaraq, insanlar meydana toplaşarkən AKP hakimiyyətinin deyil, məhz Türkiyə dövlətinin mövcudluğunu dəstəklədiklərinə əmin idilər.

Demək ki, prezident Ərdoğan Qərbə bağlı siyasi mərkəzlərin illərlə parçalamağa çalışdığı Türkiyə cəmiyyətinin bütün təbəqələrini birləşdirməyə nail olmuşdu. Hətta bunun üçün müəyyən siyasi fədakarlıqlardan belə, çəkinməmişdi.

Məsələ ondadır ki, vaxtilə münasibətləri kəskin olan və öz çıxışlarında təhqiramiz ifadələrə yol vermiş əsas leqal siyasi rəqiblərinə qarşı açdığı məhkəmə iddialarının hamısını geri çəkdi, onların təhqirlərini bağışladı. Bununla da kifayətlənmədi. Tanrıdan və xalqından açıq mətnlə üzr dilədi: **“Bu xainləri vaxtında zərərsizləşdirə bilmədiyim üçün üzgünəm. Buna görə Rəbbimdən və millətimdən üzr diləyirəm”.**

Ardınca daha bir önəmli məqama təmas etdi və bəzi gözlənilməz etirafları ilə Türkiyə cəmiyyətini rahatlatdı: **“Vaxtilə Gülən camaatına rəhmətlik Özal, Dəmirəl, Ecevit və hətta mən də müsbət yanaşdıq. Onların əleyhinə çıxan yalnız Ərbakan oldu”.**

Önəmli etirafdır. Bir tərəfdən, özünün yanlış yapdığını gizlətmir. Digər tərəfdən isə bu şəbəkənin 40 il ərzində Türkiyə dövlətinin içinə hopmasında heç kəsin ehtimal vermədiyi kəslərin də suçlu olmasıyla bağlı həqiqətləri gündəmə gətirir. Yəni son 40 illik keçmişə yeni baxış variantı təklif edir. Üstəlik, mövcud situasiyadan çıxış yollarını da göstərir: **“Dövləti sıfırdan başlamaqla, yenidən qurağıq”.**

Təbii ki, Türkiyə kimi Qərbə meydan oxumaq səviyyəsinə gəlmiş bir nəhəng dövləti yenidən qurmaq asan məsələ deyil. Bunun üçün xalqın qeyd-şərtsiz dəstəyi lazımdır. Həmin dəstəyi isə bir neçə milyonluq mitinq sayəsində özü üçün təmin etdi. Yeni həmin mitinq həm də yeni Türkiyənin qurulmasına xalqın birmənalı dəstəyinin əlaməti hesab oluna bilər.

Belə anlaşılır ki, prezident Ərdoğan sonuncu mitinqlə əldə etdiyi kütləvi dəstək hesabına elə həmin meydandaca yeni Türkiyənin təməlini atmış oldu. Bu dəstək mitinqində hətta onun əsas leqal siyasi rəqibləri - CHP və MHP də öz liderləri ilə birlikdə yer aldı.

Hədəf yeni Türkiyənin qurulması prosesinin 2023-cü ilə qədər yekunlaşdırmaqdır. Əlbəttə, Türkiyənin Qərbdəki və daxildəki bəzi bədxahları bu hədəflərin qarşısında yer alacaqlar, əngəl törətməyə çalışacaqlar. Ancaq Yeni Qapı mitinqinə toplaşan milyonların dəstəyi itirilmədikcə həmin bədxahların bu böyük hədəfə əngəl törədə biləcəkləri o qədər də inandırıcı görünmür.

❑ **Elçin XALİDBƏYLİ**

# Parlamentdə azlıqda olan partiyalarda referendum passivliyi

## Tanınmış deputatdan maraqlı izahat və növbədənkənar prezident seçkisi proqnozu



Fazil Mustafa

**Hakim Yeni Azərbaycan Partiyasından başqa parlamentdə təmsil olunan heç bir partiya konstitusiyaya dəyişikliklər edilməsi məqsədilə 2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsi (referendum) ilə əlaqədar təşəbbüs qrupu yaratmadılar. YAP istisna olmaqla, digər parlament partiyalarında referendumla bağlı passivlik müşahidə edilir.**

Təşəbbüs qrupunun nədən yaradılmaması barədə “Yeni Müsavat”ın sualına **Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa** cavab verib. Onun dediyinə görə, referenduma çıxarılan məsələlər bəllidir və vətəndaşlar xüsusi izahat olmadan da seçimlərini edə biləcəklər: “Referenduma təqdim olunan maddələr bəllidir. Vətəndaşlar lehinə və ya əleyhinə mövqe ifadə eləyə bilər. Ona görə də bunu hansısa formada təbliğ eləməyin xüsusi bir adı yoxdur. Yəni bu, vətəndaşın öhdəsinə buraxılan, izaha xüsusi ehtiyacı olmayan sadə məsələlərdir, vətəndaş seçimini rahatlıqla edə bilər. Bunun nəyinin izahını vermək lazım olduğunu söyləmək çətindir. Biz fikirlərimizi cəmiyyətə açıqladıq; orada müəyyən müddəalar var ki, onlar gələcəkdə narahatçılıq yarada bilər. Torpaq üzərində mülkiyyət hüququnun məhdudlaşdırılması, parlamentin səlahiyyətinin məhdudlaşdırılması kimi məsələlər narahatçılıq yarada bilər. Digər məsələlərlə bağlı vətəndaşlara xüsusi izah edilməli narahatedici məqamlar hesab edirik ki, yoxdur. Onu da deyim ki, yay aylarında partiya strukturlarının aktiv fəaliyyət göstərmədiyi bir vaxtda referendumla bağlı xüsusi təbliğat işi aparmağın özü çətindir. Bütün bunlara görə də biz prosesin özündə fəal vətəndaş kimi iştirak etməyi düşünürük, gedib səs verəcəyik və partiya üzvlərini də səsvermədə iştirak eləməyə çağıracağıq. Burada partiyalar arasında seçki mübarizəsi, proseduru da yoxdur ki, partiya olaraq səfərbər olaq. Biz prinsipcə referenduma təklif edilən əksər müddəaların əleyhinə deyilik. Biz narahat olduğumuz bir-iki maddə ilə bağlı fikirlərimizi cəmiyyətə çatdırmaqla kifayətlənirik”.





**Referendumdan sonra ölkədə növbədənkənar prezident və parlament seçkilərinin keçirilib-keçirilməyəcəyinə gəlincə, Fazil Mustafa dedi ki, növbədən kənar seçkilərin keçiriləcəyi haqda məlumata malik deyil:** “Məlumatım yoxdur. Amma proqnozlaşdırılan odur ki, prezident seçkilərinin keçirilməsi ehtimalı var. Çünki konstitusiyada prezidentliyə aid olan statuslar, müddətlər dəyişilir. Parlament seçkilərinin keçiriləcəyi ehtimalının isə olmadığını düşünürəm. Çünki parlament yenicə formalaşıb. Digər tərəfdən də eyni vaxtda həm parlament, həm prezident seçkilərini keçirmək özü bir problemdir. Yeni parlament seçkiləri keçirilib, nəticələr beynəlxalq təşkilatlar tərəfindən tanınıb. Belə bir vaxtda təzədən seçki keçirməyin məntiqi izahı yoxdur. Amma əgər keçirilərsə biz də bir partiya kimi seçkilərdə iştirak edəcəyik”.

YAP və Müsavat Partiyası isə yaratdıqları təşəbbüs qruplarının təşviqat qrupu kimi Mərkəzi Seçki Komissiyası tərəfindən rəsmi qeydə alınması üçün ölkə ərazisində imzatoplama işini davam etdirirlər. Hər iki partiyaya MSK imza vərəqələrini ötən həftə verib. Hər təşviqat qrupunun qeydə alınması üçün azı 40 min seçici imzası olmalıdır.

MSK-dan verilən məlumatda isə deyilir ki, dünəndən Milli Məclisin mətbəəsində səsvermə bülletenlərinin çapına başlanıb. MSK sədri Məzahir Pənahov bildirib ki, referendumla bağlı səsvermə bülletenlərinin mətni, forması, say və hazırlanma qaydalarına dair tələblər MSK tərəfindən müəyyənləşdirilib və 5 milyon 280 min 924 ədəd bülleten çap olunması qərara alınıb.

Səsvermə bülletenləri çap olunaraq qanunvericiliklə müəyyən olunmuş qaydada və müddətdə MSK-dan dairə seçki komissiyalarına, dairə seçki komissiyalarından isə məntəqə seçki komissiyalarına veriləcək. Eyni sayda bildiriş də çap olunacaq.

M. Pənahov bildirib ki, ilkin olaraq bülletenlər uçqar dairələrə göndəriləcək.

Bülletenlərin çapı prosesinin mühafizəsi Xüsusi Dövlət Mühafizə Xidməti tərəfindən həyata keçirilir.

2016-cı il sentyabrın 26-na təyin edilmiş ümumxalq səsverməsində (referendumda) kütləvi informasiya vasitələrində referendum qabağı təşviqat aparmaq məqsədilə üzvlərinin sayı 40 min və daha çox olan referendum üzrə təşviqat qruplarına referenduma çıxarılan məsələlərin lehinə və əleyhinə təşviqat aparmaqdan ötrü aşağıda göstərilən kütləvi informasiya vasitələrində ödənişsiz efir vaxtı və dərc üçün yer ayrılacaq: İctimai Televiziya və Radio Yayımları Şirkəti, “Azərbaycan” qəzeti, “Xalq qəzeti”, “Bakinski raboçi” qəzeti.

MSK-dan verilən məlumata görə, yuxarıda göstərilən qurumlar, o cümlədən digər teleradio verilişləri təşkilatları və dövri nəşrlərin redaksiyaları referendum qabağı təşviqat üçün ödənişli efir vaxtı və yaxud dərc üçün yer ayrılmasının mümkünlüyünə dair qərar qəbul etdikdə, bu barədə Mərkəzi Seçki Komissiyasına müvafiq bildirişlər göndərməli, efir vaxtının verilməsinə və dərc üçün yerin ayrılmasına görə ödənişin əsasları, şərtləri və məbləği barəsində məlumatları referendumun təyin edilməsi haqqında qərarın rəsmi dərc olunmasından sonra ən geci 30 gün keçənədək dərc etməlidirlər.

❑ **Etibar SEYİDAĞA**

YENİ MÜSAVAT
N 173 (6494) 9 avqust 2016

**Dostlarım arasında onun ən böyük heyranı Pənah Hüseyndir. İllər öncədən “Ərdoğan Türkiyəni böyüdür, Yeni Osmanlı gəlir, Türkiyə dünya gücü olur...”, deyə tutdurmuşdu.**
**Biz Türkiyə adına MHP-ni sevərdik; bu təşkilatdan gələn dostlarımız 1992-93-cü illərdə Azərbaycan uğrunda bizimlə bərabər savaşmışdılar; əfsanəvi lider Alparslan Türkeş bu partiyanın qurucusu idi - biz də onun heyranı... AK Parti bizə uzaq dururdu; qısqanılacaq dərəcədə ərəbçi idi; Fələstini Qarabağdan çox müdafiə edir, deyə, iradımızda, gileyimizdə idi...**



**Rauf ARİFOĞLU**

# Biz Tayyib Ərdoğanı niyə sevdik...

## Ərdoğan olmasaydı, xain çevrilişi törədənlər Türkiyəni batıracaqdılar; bütün dünya türklərinin sevgili və gözəl vətəni xaraba qalacaqdı, qan gölündə boğulacaqdı

Amma Pənah bəylə əsil mübahisə o zaman başladı ki, Türkiyəni “Ergenekon” həbsləri bürüdü, bir çoxunu mənim də şəxsən tanıdığım dəyərli zabitlər, jurnalistlər, siyasətçilər, iş adamları həbsə atıldılar. Onların Türkiyəni və eləcə də Azərbaycanı sevdiklərinə şübhəm yox idi. Tayyib Ərdoğan heyranı P.Hüseynə sualım bu idi ki, dostun niyə vətənpərvərləri, Türkiyə Ordusunun şanlı generallarını, jurnalistləri, yazarları zindanlara doldurur? Bunları Türkiyəni sevməkdən ayrı suçu yoxdur axı...

Başqa məsələlərdə Ərdoğanı ölümünə müdafiə edən Azərbaycanın sabiq baş nazirinin “müdafiə səddini” məhz bu fraqmentdə yara bilirdik. Dost çevrəsindəki mübahisələrin, beyin fırtınalarının əsas personajlarından biri olan dəyərli dostum, Tovuzun Elçibəy dövründəki polis rəisi olmuş Novruz Həsənli isə hər dəfə deyirdi: **“Pənah, bax görəcəksən, ”Ergenekon"la bağlı içəridə heç kim qalmayacaq, onları tutanların hamısı da vətən xaini kimi içəri tıxılacaq..."**

Novruz bəy Türkiyə siyasi mühitini hamımızdan yaxşı bilirdi, 13 il bu qardaş ölkədə mühacirət həyatı yaşayıb; qatı MHP-lidir; Bahçeli və Atilla Kayanı çox sevər - Pənah bəy Ərdoğanı sevdiyindən, bəlkə də daha çox.

İndi Novruz Həsənli tam haqlı çıxıb. “Ergenekon” işi ilə bağlı həbs olunanlar azadlıqda, bu işi düzüb-qoşanlar, Türk Ordusuna xain qəsdi həyata keçirənlərsə ya türmələrdə, ya da qaçaqdırlar, cinayətkar kimi aranırlar.

Tarix və möcüzəvi gedişatlar Pənah Hüseyni də haqlı çıxardıb; biz də haqsız sayılmarıq...

Çünki bizim mübahisəmizə, Pənah Hüseynin də zəif müqavimətinə səbəb olan fraqment Türkiyə prezidenti cənab Ərdoğanın özü tərəfindən etiraf olunub, peşmanlıq ifadə edilib. Prezident deyib ki, bu işi “paralelçilər” edib, bütün Türkiyəni, o cümlədən də onun özünü aldadıblar. Rəcəb Tayyib Ərdoğan Fətullah Gülən tərəfdarları ilə 10 il Türkiyə iqtidarını paylaşdığına, onların əli ilə törədilənlərə görə isə hər kəsdən, xüsusilə də türk millətindən üzr istəyib. Biz də türk irqindən olduğumuzdan, Türkiyəni sevdiyimizdən, mesaj bizə də aiddir. Prezident Ərdoğan son mitinqdə də dedi ki, “paralelçilərin” önünü açan, onların istintaq və hərbi sektorda irəliləməsini təmin edən cinayət işlərinə yenidən baxılacaq, zərərçəkmişlərin haqları bərpa olunacaq...

Bu, inqilab xarakterli bir dönüşdür. Üstəlik, hər liderə də nəsib olmur ki, bu cür dönüşləri özü həyata keçirsin, özünün və iqtidarının yanlışlarını şəxsən özü düzəltsin. Bu baxımdan, Ərdoğan Allahın şanslı bəndəsidir.

***

**Onun şansı həm də ondadır ki, böyük və uca bir millətə rəhbərlik edir və bu millət də onu sevir! Ərdoğan Atatürkdən sonra türk millətinin bunca könüldən sevdiyi ikinci böyük liderdir. Artıq son illərdə neçənci dəfədir, Türk milləti Ərdoğanı, Ərdoğan da Türkiyəni qoruyur. Bu bağlılıq ilahidən gələn bir xətt kimi, hər dəfə Türkiyəni fəlakətin astanasından döndərir.**

Son çevriliş cəhdi hər kəsin gözünü açdı və bu liderin miqyasını dünyaya göstərdi. Ərdoğan olmasaydı, o duruş olmasaydı, xain çevrilişi törədənlər Türkiyəni batıracaqdılar; bütün dünya türklərinin sevgili və gözəl vətəni xaraba qalacaqdı, qan gölündə boğulacaqdı. Azca məlumatı olanlar bilirlər ki, bu xain cəhdin arxasında dayanan qüvvə əslində şərti adı “FETÖ” olan təriqət hörgütü deyil; qüdrətli dövlətlərdir və onlar Ərdoğanı ona görə istəmirlər ki, qarşılarında əyilmir, öz maraqlarını və Türkiyənin çıxarlarını təmsil edir...

***

**Mənim ona bütün neqativim, barəsindəki bütün suallarım 15 iyul gecəsi silindi. Hər kəsin gözü qarşısında Türkiyəni fəlakətdən qurtardı, cəsur davrandı, virtuoz siyasət yeritdi; ölümü gözə alaraq, şəhadəti qəbullanaraq, xuntanın üstünə getdi. Xalqını meydanlara, müqavimətə səslədi - çünki onun iqtidarını və mövcud hökumətini, faktiki olaraq, yıxmışdılar; bütün rıçaqlar iflic idi; ən əsası, özü də xalqın önünə çıxdı, müqavimət hərəkatını bilavasitə, həm də küçədən yönəltdi, bir Paşa, hərbi komandan zəkası nümayiş etdirdi. Həmin gün Türkiyə Tayyib Ərdoğanın timsalında ikinci İstiqlal Savaşı verdi və çox şükürlər olsun ki, onu da qazandı...**

***

İqtidarı və ölkəni üsyandan, çevrilişdən qorumağın bu modeli 1994-cü ilin 4 oktyabr gecəsi Bakıda da sınaqdan çıxarılıb. Gənclər xatırlamazlar, ya da bunu filmlərdən görmüş olarlar; mərhum Azərbaycan prezidenti Heydər Əliyev Surət Hüseynovun və hərbi müxalifətin qiyamını məhz bu yolla məğlub etmişdi. Biz o zaman onun iqtidarına qarşı ən radikal müxalifət idik; lakin Heydər Əliyev efirdən xalqa müraciət edirdi, hər kəsə, elə bizə də ehtiyacı vardı; o zaman Azərbaycan risk altında idi; Elçibəy iqtidarını devirən xunta bu dəfə də Heydər Əliyevi devirmək istəyirdi. Azər Ayxanla eyni evdə qalırdıq; çağırışa biz də getdik və bütün müxalifəti də o zaman orada, Prezident Aparatının qarşısında gördük.

***

Türkiyənin nəhəng müxalif qüvvələri də Tayyib Ərdoğanın yanında idi. Çünki mövzu-bais vətəndir! Bu baxımdan, Tayyib Ərdoğanın 7 avqustda dünyaya göstərdiyi “Tək ürək Türkiyə!” modeli də alqışa layiqdir. Dostlar, “Yeniqapı”dakı meydanda o mənzərəni göstərən millət bizim millətdir! O səhnə həm də bizə aiddir! İstər soy ağacı ilə götürək, istər din ağacı ilə! Tayyib Ərdoğan hər birimizin adından dünyaya, Türkiyəni, türk-islam arealındakı ən qüdrətli məmləkəti qarışdırmaq istəyən güclərə strateji bir mesaj verdi. Ərdoğan o meydanda özünü və həm də türk millətini dünyaya göstərdi! İstanbulu fəth edən bir irqin yekə bir mesajı idi bu! İç xainlərə, daxili maşalara görə deyildi bu nümayiş - onlarlıq əslində heç nə yox idi, “Yeniqapı”da. Onlar istintaq və Türkiyə ədaləti qarşısında hesab verəcəklər. Ərdoğan və türk xalqı dünyaya göstərdi ki, onlar üçün vətən ən qutsaldır! Və bu millət vətənə təhdid refleksi ilə ayağa qalxanda, ona elə gəlir ki, tankı-topu, təyyarəni cismi ilə, yumruğu ilə əzər, güllə ona batmaz, ölüm ona şərbət gələr...

***

Mən bu səhnələri daha əvvəl görmüş, yaşamışam, qardaşlar! Bakıda, türk irqinin yaşadığı digər məmləkətdə - Azərbaycanda! 1988-90-cı illərdə. O zaman da azərbaycanlılar rus tanklarının qarşısına əliyalın çıxdılar, güllələrdən qorxmadılar, toplardan qaçmadılar, şəhidliyi şərbət kimi başlarına çəkdilər! Təsadüfi deyil ki, 1989-cu ildə meydanlarda apardığı mübarizəsinə görə Azərbaycan xalqı dünyada “İlin xalqı” elan olundu!

İndi ilin xalqı Türk xalqıdır. *(İçində də biz varıq!)* Gözümdə o meydan qədər böyüyən və məni özünə heyran buraxan Tayyib Ərdoğansa ilin lideri, baş komandanı, prezidentidir.

***

**Türkiyədə mövcud sistem devrilsəydi, ölkə param-parça olacaqdı. Türkiyə olmayacaqdı. Bizim sevdiyimiz, sevə-sevə getdiyimiz, bizə qucaq açan, arxamızda duran, güvənc yerimiz, millətimizin adını daşıyan müqəddəs məkan.**

**Tanrı türk-islam beşiyini, paytaxtını qorusun və daha da ucaltsın.**

# Geopolitikada üç üstə gəl üç beş də ola bilir...



**Hüseynbala SƏLİMOV**

**Əgər irəlicədən nəzərdə tutulmayan bir hadisə baş verməsə bu həftə mühüm səfərlər, böyük siyasi olaylar sarıdan heç də kasadlıq olmayacaq. Rusiya və İran prezidentlərinin Bakı səfəri, Rusiya və Türkiyə prezidentlərinin Sankt-Peterburq görüşü, nəhayət, Ermənistan prezidentinin Moskvaya səfəri - bütün bunlar həm ayrılıqda, həm də birlikdə olduqca böyük maraq kəsb edir...**

Qrafik baxımından ən irəlicədə Rusiya və İran prezidentlərinin Bakı səfəri idi. Onlar Bakıya Azərbaycan - İran - Rusiya formatı çərçivəsində reallaşdırılan növbəti tədbirdə iştirak etmək üçün gəlməli idilər...

Xatırladım ki, bu geosiyasi formatı - Bakı-Tehran- Moskva geosiyasi üçbucağını rəsmi Bakı Türkiyə ilə Rusiyanın münasibətləri korlanan vaxt formalaşdırmışdı. Əsas məqsəd şimal - cənub tranzit dəhlizinin inkişafı olsa da, hamıya bəllidir ki, bununla Bakı həm də Moskva ilə Ankara arasındakı korlanan münasibətlərin fəsadlarından özünü sığortalamağa çalışmışdı. Bu, həm də digər bir siyasi üçbucağa - Bakı - Ankara - Tbilisi formatına bir balans kimi nəzərdə tutulmuşdu. Bu üçbucaqlar bir müddət Bakıya Ankaradan və Moskvadan bərabər məsafələr saxlamağa imkan verdi. İndi, Rusiya ilə Türkiyənin münasibətlərinin normallaşdığı bir vaxtda, iki siyasi üçbucağın bir beşbucağa çevrilmək imkanı da var...

Ən azı ona görə ki, bu formullarda iştirak edən bütün dövlətlərin qarşılıqlı ticarət və əmtəə dövriyyəsini artırmaqda marağı var. Elə bu səbəbdən də geosiyasi üçbucaqlar daha effektiv olan və daha dinamik olmağı vəd edən geo-iqtisadi beşliyə də transformasiya oluna bilərlər ki, bunu da qeyd etməyi bir daha vacib bildik...

Moskva - Tehran- Bakı üçlüyünün görüşünün bir daha deyirik ki, əsasən şimal -cənub dəhlizinin inkişafına həsr olunacağı ilə şübhə doğurmur. Amma böyük ehtimalla Rusiya prezidenti öz bakılı həmkarı ilə Qarabağ problemini də müzakirə edəcək. Ermənistanda və Türkiyədə baş verən son olaylar danışıqlar prosesində bir qeyri - müəyyənlik yaratmışdı. İndi hər iki ölkə öz normal ritminə qayıdır. Güman edirik ki, bu, da prosesə hiss olunacaq dinamizm verəcək...

Türkiyədəki hərbi çevriliş cəhdindən azacıq əvvəl Minsk Qrupunun həmsədrləri Ankaraya səfər etməyi və Qarabağ problemini orada da müzakirə etməyi planlaşdırırdılar.

Ümid edirik ki, həmsədrlər bu niyyətlərini tamamilə unutmayıblar və yaxın gələcəkdə onu gerçəkləşdirmək üçün müvafiq səylər edəcəklər. Ən azı ona görə ki, indi Rusiya ilə Türkiyə arasında da qarşılıqlı etimad artmaqdadır. Bu isə heç də az iş deyil. Qarşılıqlı qısqanclıq olmasa, münasibətlər konstruktiv bir məzmun alsa, bunun Qarabağ probleminin həllinə yalnız köməyi dəyə bilər...

O ki qaldı Ermənistan prezidentinin də Moskva səfərinə, güman ki, tərəflər Ermənistandakı son olayları və siyasi vəziyyəti müzakirə edəcək, V.Putin S.Sarkisyanı özünün Azərbaycan və Türkiyə prezidentlərilə görüşlərinin təfərrüatları ilə tanış edəcək.

Təbii ki, S.Sarkisyanın digər qayğıları da var - istisna deyil ki, o, Moskvaya yenə də iqtisadi və hərbi-siyasi dəstək almaq üçün yollanır. Amma bir daha deyirik ki, bu səfərdə Qarabağla bağlı məqamlar da müzakirə ediləcək.

Yazının əvvəlində iki siyasi üçbucağın geo-iqtisadi beşbucağa transformasiya oluna bilməsi haqqında yazdıq. Əgər Ermənistan da istəsəydi, realist və konstruktiv siyasət yürütsəydi, bu beşbucaqlı həm də altıbucaqlı ola bilərdi. Amma Ermənistan belə bir addım atacaqmı?..

Təbii ki, çox şey Rusiyanın öz planında nə qədər israrlı olmasından asılı olacaq. Fəqət, V.Putinin Bakıya səfəri ərəfəsində verdiyi müsahibəsində bir qədər tərəddüd vardı.

Düzdür, diplomatiyada belə bir üsul vardır - bir qayda olaraq vasitəçilər elə davranırlar ki, münaqişə tərəfləri onların pressinqini hiss etməsin və onlarda belə bir fikir yaransın ki, qərarı və seçimi məhz onlar özləri verirlər. Bu baxımdan V.Putinin “Biz Bakıya və Yerevana hazır reseptlər vermirik!” deyərək azərbaycanlıların və ermənilərin iradəsinə apelyasiya etməsi də başa düşüləndir - bir daha deyirik ki, diplomatiyada elə belə də edirlər...

Ona görə də münaqişə tərəflərinin növbəti görüşünün təşkililə bağlı danışıqların intensivləşməsi perspektivinə ümidlə baxırıq. Bizi bu məsələ niyə bu qədər ilgiləndirir? Məsələ bundadır ki, iki həll variantını birləşdirən aralıq ssenari də qəbul olunmazsa, proses uzunmüddətli və məchul bir dalana dirənəcək. Bəlkə də üzücü danışıqlardan bezmiş oxucu bu cümləni oxuyarkən dərhal qayıdıb deyəcəkdir ki, qoy, elə belə olsun, biz də boş dayanmarıq, müharibə edib torpaqlarımızı qaytararıq!..

Tamamilə haqlı mövqedir. Amma bir sual var: “Böyük dövlətlər və təşkilatlar müharibə etməyə imkan verəcəklərmi?”. Məgər bütün bu prosesin ağrısı-acısı onda deyilmi ki, düz 22 ildir nə müharibə etməyə imkan verirlər, nə də ki, sülh yarada bilirlər?..

Yeni Müsavat
N 173 (6494) 9 avqust 2016



# Qoca Şərqin bağlı qapısı

Xalid KAZIMLI

**Şərqdə belədir, hakimiyyətə gəlmək istəyən siyasi qüvvənin iki böyük məqsədi olur: 1. Necə olursa-olsun, hakimiyyətə gəlmək. 2. Nəyin bahasına olursa-olsun, hakimiyyəti əldə saxlamaq.**

Üçüncü, dördüncü, beşinci məqsədlər də ola bilər, onlar da təxminən bu cürdür: xalqı dolandırmaq, dövlətin təhlükəsizliyini təmin etmək, ölkənin qüdrətlənib çiçəkləndimək və s.

Yeni Şərqdə həmişə əsas məsələ hakimiyyətə yiyələnmək və hakimiyyəti əldə saxlamaqdır. Bunun içində hakimiyyətdən istifadə edib sərvət toplamaq, güclü qəbilə yaratmaq, hakimiyyəti bioloji varisləri ötürmək-filan da var.

Ona görə də Qərbdə, Avropada iqtidar komandaları vaxtaşırı bir-birini əvəz etdiyi halda, Şərqdə hakimiyyətlər uzunömürlü olurlar. Hakimiyyətə bir gələn bir də getmək istəmir. Bu ambisiyalar üzündə ölkələr qana çalxanır, vətəndaş müharibələri baş verir, dövlətlər dağılır.

Bəzən elə dövran yetişir ki, bir Şərq ölkəsində iki-üç il ərzində hakimiyyətlər bir neçə dəfə dəyişir, amma bu, əsasən xaos dövründə, keçid zamanında baş verir. Sonra biri gəlir və bütün ağırlığıyla dövlətin üzərinə çökür.

Nə yazıq ki, Avropada iqtidarlar tez-tez dəyişən ölkələr sürətlə inkişaf etdiyi halda, Şərqdə tez-tez dəyişən iqtidarlar xalqa fəlakət gətirir. Hakimiyyətlərin dəyişməsi prosesi Şərqdə çox ağrılı keçir, yalnız inqilablar, üsyanlar, hərbi çevrilişlər, vətəndaş müharibələri ilə müşayiət olunur.

Budur, müsəlman dünyasının yeganə demokratik ölkəsi olan Türkiyə də artıq uzunömürlü iqtidar epoxasına qədəm qoyub və buna mülayim avtoritarizm vasitəsilə nail olub.

İşə baxın ki, bu uzunömürlü və avtoritarizmə meylli hakimiyyət komandası Türkiyəyə iqtisadi nailiyyətlər qazandırıb, onu inkişaf etdirib. Ən maraqlısı da odur ki, bu komanda hakimiyyətdə möhkəmlənmək xəttini davam etdirir.

Hər il və ya iki ildən bir qurulub-dağılan koalisiya hakimiyyətləri zamanı belə deyildi. Ölkədə siyasi xaosla yanaşı, iqtisadi hərc-mərclik də hökm sürürdü.

Yaponiya, Cənubi Koreya, Kanada və başqaları tez-tez və dinc yolla dəyişən iqtidarların dövründə o cür yüksək inkişaf yolu keçiblər. Əsas məsələ ölkəni idarə edən bir qüvvənin digərinin yerinə qansız-qadasız, ağrı-acısız keçməsidir. Bu isə Şərqdə hələm-hələm baş tutmur.

21-ci əsrin bu vədəsində, Avropada seçki yolu ilə, dinc şəkildə hakimiyyətlərin dəyişməsi mexanizminin tətbiqindən yüz illər keçdiyi, monarxiya quruluşlarına son verildiyi, yaxud simvolik bir institut kimi saxlandığı bir vaxtda Şərqin gözü qədimi monarxiya quruluşlarındadır, xanədanlıq sistemindədir.

Türkiyədə Osmanlı dövrünün nostaljisi artıq seriallar müstəvisindən çıxaraq ictimai şüura hakim kəsilməkdədir. Bu gün milyonlarla vətəndaşa elə gəlir ki, qurtuluş və səadət monarxiyanı, əski üsul-idarəni bərpa etməkdədir.

O boyda Osmanlı imperiyasını süquta yetirən sultanların fərasətsiz, bəsirətsiz kimlikləri, ölkəni Avropa imperialistlərinin ayaqaltısına çevirərək, böyük dövləti məhv olmaq astanasına gətirmələri unudulub, deyəsən.

Çoxları etiraf etmək istəmir, danır, ancaq 1915-23-cü illərdə Atatürkün öz millətinin taleyində oynadığı möhtəşəm rol və göstərdiyi fövqəladə xidmət olmasaydı, bu gün Türkiyə hansı vəziyyətdə, hansı sərhədlər çərçivəsində qalardı, ümumiyyətlə qalardımı - düşünmək lazımdır.

Əvvəl-axır Şərq ölkələrinin əhalisi də kütləvi şəkildə demokratiyanın alternativi olmadığını, dövlətin qanunlar və demokratik prinsiplər əsasında idarə olunmasının zəruriliyini anlayacaqlar, amma bunun hansı yaxın yüzilliklərdə baş verəcəyi bilinmir.

İndilikdə Şərq ölkələrində əhalinin bir qismi nicatı teokratik rejimlər yaradıb şəriət qayda-qanunları ilə yaşamaqda görür, bir hissəsi də hesab edir ki, mənasız seçkilərdənsə birdəfəlik orta əsrlərin padşahlıq rejimlərini bərqərar etməkdir. Bir hökmdar olsun, hamı da ona biət etsin, siyasi qarğaşa, ixtilaflar olmasın.

Şərq xalqları güclü liderləri, asan-kəsən, basıb-bağlayan, hökmlü, qətiyyətli, qəddar rəhbərləri sevir, onlardan qorxur, yalnız onlara itaət edir. Demokratik liderlər Şərqdə lətifə personajına çevrilirlər. Xalq onlara "bambılı" deyir, soyadını ələ salır, barəsində şəbədə qoşur.

Şərqin gələcəyi çox qaranlıq görünür, onun qapısı demokratiyaya bağlıdır. Avropanın yüz il əvvəl önəm verdiyi dəyərlər, tətbiq etdiyi meyarlar Şərqdə yüz ildən sonra bərqərar olacaqsa, böyük işdir.



# ANS ASAN-laşdırılır iddiasına cavab gəldi

## Anar Hüseynov: "Bu məlumat həqiqəti əks etdirmir"

**Bu günlərdə xəbər yayıldı ki, lisenziyasına xitam verilən ANS telekanalının bazasında artıq yeni televiziya kanalı fəaliyyət göstərəcək. Məlumata görə, uzun müddətdir müzakirə edilən və açılmasına qərar verilən ASAN TV ANS TV-nin texniki bazası üstündə qurulacaq. Qeyd olunur ki, ANS bir daha açılmayacaq və onun bütün texnikası satın alınaraq, ASAN TV-nin binasında quraşdırılacaq. Həmçinin ASAN TV-nin ANS-in yaradıcı personalını tam heyətlə işə dəvət edəcəyi də gözlənilir. İddia edilir ki, hakimiyyət 500-dən artıq jurnalistin ANS-in bağlanması ilə işsiz qalmasında maraqlı deyil və bu peşəkar heyəti tam tərkibdə yeni kanalda işlə təmin etməyi hədəfləyir. ANS-in vitse-prezidenti Mirşahin Ağayevə isə ASAN TV-də yüksək vəzifə veriləcək.**

Səslənən iddialarla bağlı Mirşahin Ağayevin fikirlərini öyrənmək üçün onunla telefon əlaqəsi saxlamaq istədik. Lakin zənglərimizə cavab vermədi.

Qeyd edək ki, yeni ASAN TV-nin fəaliyyətə başlayacağı ilə əlaqədar hələ bir neçə gün bundan əvvəl mətbuatda məlumatlar yer almışdı. Televiziyanın təsisçisi qismində isə "ASAN Xidmət"in olduğu bildirilirdi. Deyilənlərə aydınlıq gətirmək üçün "ASAN Xidmət" mərkəzinə müraciət etdik. Qurumun ictimaiyyətlə əlaqələr sektorunun rəhbəri Anar Hüseynov "Yeni Müsavat"a yayılan məlumatların həqiqəti əks etdirmədiyini, ASAN TV ilə bağlı nə rəsmi, nə də qeyri-rəsmi formada hər hansı məlumat açıqlanmadığını dedi.

Qeyd edək ki, yeni ASAN TV-nin fəaliyyətə başlayacağı ilə bağlı məlumatlar təkzib edilsə də avqustun 7-dən facebook sosial şəbəkəsində adıçəkilən televiziyanın səhifəsi yaradılıb. Profili yeni televiziyanın loqosunu əks etdirən səhifə artıq 500-dən çox sosial şəbəkə istifadəçisi tərəfindən bəyənilib, izlənilir. Lakin səhifədə nə adıçəkilən televiziya, nə də ki, digər məsələlər ilə bağlı suallar cavablandırılmır.

### Mahir Məmmədli: "Biz hələ ANS-in işçiləriyik, hər gün işə gedir, işdən evə gəlirik"

Maraqlıdır, yeni ASAN TV layihəsi baş tutarsa, ANS əməkdaşları yeni televiziya ilə işləməyə razılaşacaqlarmı?

ANS-in lisenziyasının ləğv olunmasında adı hallanan, bugünlərdə vətənə qayıdan televiziyanın ABŞ-dakı müxbiri Qənirə Ataşova suallarımızı cavablandırmaqdan yayındı. O, hazırda xəstəxanada, vəziyyəti ağır olan atasının yanında olduğunu, bu səbəbdən də heç bir suala cavab vermək imkanı olmadığını bildirdi.

**ANS-in xəbərlər xidmətinin şef-redaktoru Mahir Məmmədli isə ANS-in bazasında hansısa televiziyanın yaradılacağı ilə bağlı danışmağın tez olduğunu vurğuladı:** "Əvvəla, ANS-in lisenziyasına xitam verilməsi ilə bağlı Apelyasiya Məhkəməsinin qəbul etdiyi qərar hələ qüvvəyə minməyib. ANS Ali Məhkəməyə şikayət edib və son qərarı Ali Məhkəmə deyəcək. Ona görə də indidən ANS-in bazasında hansısa televiziyanın yaradılacağı ilə bağlı danışmaq tezdir. İkincisi də "ASAN -Xidmət" son bir həftə ərzində yayılan məlumatları bir neçə dəfə təkzib etdi. Hesab edirəm ki, biz hələ ANS-in işçiləriyik, hər gün işə gedir, işdən evə gəlirik... İnanırıq ki, ANS televiziyası hazırkı formatda fəaliyyətini davam etdirəcək. Ona görə də ANS-in yerinə başqa televiziyanın fəaliyyət göstərəcəyini söyləməyə lüzum yoxdur".

Qeyd edək ki, lisenziyasına xitam verildiyi üçün ANS-in əməkdaşları 23 iyuldan qeyri-müəyyən müddətə məzuniyyətə, istirahətə buraxıldığından digər əməkdaşlarla əlaqə saxlamaq imkanımız olmadı.

Xatırladaq ki, iyulun 29-da Bakı Apelyasiya Məhkəməsində ANS-in lisenziyasına xitam verilməsi ilə bağlı qərar qəbul olunub.

ANS rəhbərliyi bu qərarı ədalətli qərar hesab etmədiyini bildirib və Ali Məhkəməyə müraciət edib. Televiziyanın bağlanmasına 15 iyul Türkiyə olayları zamanı televiziyanın ABŞ-dakı müxbiri Qənirə Ataşovanın Fətullah Gülənlə etdiyi müsahibənin səbəb olduğu bildirilir.

❑ Xalidə GƏRAY

# Eldar Mahmudovun daha bir kadrı "vuruldu"

## Qədir Əkbərovun "MTN işi" üzrə istintaqa cəlb ediləcəyi istisna deyil

**Eldar Mahmudovun işdən azad edilməsi ilə başlamış "təmizləmə" Milli Təhlükəsizlik Nazirliyinin (MTN) bir qurum olaraq ləğvi, sabiq nazirin kadrlarının bir qisminin həbsi, bir çoxlarının isə xüsusi xidmət orqanındakı vəzifəsindən xaric olunması ilə nəticələndi. Gələn məlumatlar onu deməyə əsas verir ki, işdən qovulmalar bu gün də davam edir.**



Gununsesi.info yazır ki, Eldar Mahmudov komandasına bu və ya digər formada bağlılığı olan şəxslər yeni qurumda - Dövlət Təhlükəsizlik Xidmətində (DTX) özlərinə yer tapa bilmirlər: "Son aylar ərzində Eldar Mahmudovun nəfsinin qurbanına çevrilərək, öz peşə şərəfini qoruya bilməyən yüzlərə şəxs DTX-də yer ala bilmədi. DTX rəisi Mədət Quliyevin əmri ilə MTN-in İnspektorluq İdarəsinin rəisi olmuş polkovnik Qədir Əkbərov bu qurumdan xaric edilib. Mənbənin sözlərinə görə, Qədir Əkbərov MTN-in ləğvindən sonra onun bazasında yaradılan DTX-də qalmağa nail olsa da, köhnə əməllərinin araşdırılması bir neçə gün əvvəl onun işdən qovulması ilə nəticələnib".

Q.Əkbərovun "MTN işi" üzrə istintaqa cəlb ediləcəyi də istisna deyil. Hazırda Bakı İstintaq Təcridxanasında 4-ü general olmaqla, ümumilikdə 19 MTN-çi var. İstintaqa cəlb edilmiş daha bir general-mayor, MTN Əməliyyat-texniki idarəsinin sabiq rəisi Natəvan Mürvətova ev dustaqlığındadır. İş üzrə ilk həbs olunanlardan biri, MTN-in Antiterror Mərkəzinin rəis müavini İlqar Əliyev isə rəsmi məlumatlara görə, Bakı İstintaq Təcridxanasında intihar edib. Baş Prokurorluğun "MTN işi" ilə bağlı yaydığı son məlumata görə, iş üzrə 130 epizod araşdırılır. MTN-çilərin cinayət əməlləri nəticəsində hüquqları pozulmuş 65 nəfər zərərçəkmiş şəxs qismində tanınıb.

Xatırladaq ki, MTN-çilərin əksəriyyətinə qarşı CM-in 308.2 (vəzifə səlahiyyətlərindən sui-istifadə), 309.1(vəzifə səlahiyyətlərini aşma) və 302.2-ci(qanunsuz dinləmə) maddələri ilə ittiham irəli sürülüb. General A.Çovdarov isə 308.2 maddəsi ilə yanaşı Cinayət Məcəllənin 311.3.1 (rüşvət alma (passiv rüşvətxorluq), qabaqcadan əlbir olan bir qrup şəxs və ya mütəşəkkil dəstə tərəfindən), 311.3.2 (rüşvət alma (passiv rüşvətxorluq) təkrar törədildikdə), 311.3.3 (rüşvət alma (passiv rüşvətxorluq) külli miqdarda törədildikdə), 311.3.4 (rüşvət alma (passiv rüşvətxorluq) hədə-qorxu tətbiq olunmaqla törədildikdə) və 145.3-cü (qanunsuz azadlıqdan məhrum etmə, iki və ya daha çox şəxsə qarşı törədildikdə; təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadına qarşı törədildikdə; yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə; bir qrup şəxs, qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə; zərərçəkmiş şəxsin həyatı və ya sağlamlığı üçün təhlükəli olan zor tətbiq etməklə törədildikdə; silahdan, yaxud silah kimi istifadə edilən əşyalardan istifadə etməklə törədildikdə, bu əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddələri ilə də ittiham irəli sürülüb.

❑ E.MƏMMƏDƏLİYEV

**Müsavat Partiyasının üzvü, ADR Hərəkatının Məclis nümayəndəsi Əlövsət Sadıxlı "Yeni Müsavat"a müsahibə verib. O, müsahibədə partiyanın iki il əvvəl keçirilən qalmaqallı qurultayından, həmçinin orada baş verən çoxsaylı qanun pozuntularından danışıb. O qeyd edib ki, həmin qurultayda Arif Hacılı da saxta yolla başqan seçilib. Ə.Sadıxlı müxbirimizə iddialarını təsdiqləyən sənədlər və sübut növləri təqdim edib.**



# "9 nəfərə saxta mandat verilməsəydi, Müsavat başqanı indi başqası idi"

## Əlövsət Sadıxlı: "Arif Hacılının başqanlığı, indiyədək verdiyi bütün əmr, qərar və sərəncamlar, formalaşdırdığı strukturlar etibarsızdır"

*(əvvəli ötən sayda)*

**- Yəni QHTK səlahiyyət həddini aşıb, saxtakarlıqlara yol verib? Və o, əlavə 9 nəfərin səs vermək hüququ yox idi və onların saxta səsləri hesabına yetərsay alınıb?**

- Partiya nizamnaməsində strukturlar arasında səlahiyyət bölgüsü dəqiq müəyyən edilib və qurultaya nümayəndə seçkisi Nizamnamənin 3.4-cü maddəsi ilə rayon (şəhər) təşkilatlarının müstəsna səlahiyyətidir və bu səlahiyyət digər heç bir orqana verilmir. Həmçinin ümumi yığıncaq rayon şurasının özək sədri olmayan üzvlərini seçir, rayon təşkilatının sədrini seçir; rayon təşkilatı NTK-sının say tərkibini müəyyən edir və NTK-nı seçir; rayon şurası və NTK-nın hesabatını dinləyir, partiyanın qurultayına nümayəndələr seçir. Deməli, araşdırma göstərir ki, qurultayda seçilməmiş əlavə 9 nəfərə mandat verilməsi qeyri-qanuni olub və bu 9 nəfərə mandat verilməsəydi, seçkinin nəticələri fərqli olacaqdı. Bu maxinasiya ilə əlaqədar başqa bir nüansa diqqət edək. Bəs əlavə mandat veriləcək şəxsləri kim müəyyənləşdirib, mandat verilməli şəxslərin siyahısını kim tutub, təsdiq edib və qurultayın işçi qrupuna təqdim edib ki, həmin şəxslər heç kimin xəbəri olmadan mandat alaraq səsvermədə iştirak ediblər? Aparılan araşdırma nəticəsində həmin 9 nəfərin kimliyi də müəyyənləşdirilib və məlum olub ki, bu prosesi Arif Hacılının rəhbərlik etdiyi icra aparatı idarə edib və 9 nəfərin qurultayda iştirakını təmin edib. Deməli, elementar məntiq təsdiq edir ki, icra aparatı ümumi yığıncaq və ya konfrans keçirə bilməyən 16 rayon təşkilatının 9-da Arif Hacılıya sədaqətli şəxslər tapa bilib, onlara dolayı yolla mandat verib və Arif Hacılıya səs verməlɘrini təmin edib. Belə olan halda gəlin əvvəlki hesablamaya yenidən nəzər salaq. Qeyd edildi ki, başqan seçkisi üçün minimum 226 səs tələb olunub. Arif Hacılı da 228 səs alıb. Əgər Arif Hacılıya saxta mandatla həmin 9 nəfər səs vermiş olmasaydı, o, 219 səs qazana bilərdi. 219 səs başqan seçilmək üçün yetərli deyil. Deməli, ən azından seçkilərin II turu keçirilməli idi. Qeyd etdiyim araşdırma faktlarla sübut edir ki, Arif Hacılının VIII qurultayda başqan elan olunması real faktlara söykənmir. Ona görə də Arif Hacılının başqanlığı və indiyədək verdiyi bütün əmr, qərar və sərəncamlar, formalaşdırdığı strukturlar etibarsız hesab edilməli, qurultay toplanaraq, başqanlıq seçkisinin II turunu keçirməlidir.



**"Yeni Müsavat"la bağlı qalmaqalda bu adam özünün islaholunmaz intriqant olduğunu bir daha təsdiq etdi"**

**- Sizcə, bu baş verə bilərmi?**

- Tam əminliklə bildirirəm ki, bu, baş verməyincə, Müsavatda demokratik prinsiplər bərqərar olmayınca, partiyanın əvvəlki imicini özünə qaytarmaq mümkün olmayacaq. İkinci iddiam ondan ibarətdir ki, VIII qurultaya aid protokolun Ədliyyə Nazirliyinə göndərilən nüsxəsində 29-cu səhifədə MNTK və sərbəst məclis üzvlərinin seçkisi və müvafiq protokolların təsdiqi haqqında məlumatlar saxtalaşdırılıb. Belə ki, VIII qurultayın videosu təsdiq edir və bütün qurultay iştirakçıları da şahiddir ki, qurultayın davamının 28 sentyabr 2014-cü il tarixdə Müsavat Partiyasının qərargahında davam etdirilməsi, MNTK və sərbəst Məclis üzvlərinin seçkisinə aid məsələlərin orada həll olunması qərara alınıb. Məlumdur ki, həmin tarixdə yetərsay alınmadığından, qurultayın davamı baş tutmadı. Ona görə də qurultayın davamı başqa vaxta keçirilməli və yarımçıq qalmış məsələlər orada həll edilməli idi. Bunu etmək əvəzinə İsa Qəmbər, Arif Hacılı və yaxın ətrafı Ədliyyə Nazirliyinə göndərilən protokol məlumatlarını saxtalaşdırmağa üstünlük verdilər. Məlumatda qeyd etdilər ki, guya qurultay MNTK və sərbəst Məclis üzvlərinin seçkisinə aid məsələlərin Məclisdə həll olunması barədə qərar verib. Qurultayda İsa Qəmbər bildirir ki, "Qurultayın bugünkü bölümünü bitiririk". Yəni səslərin bir gün sonra partiyanın qərargahında sayılması nəzərdə tutulur. Amma məsələnin digər çox həlledici bir tərəfi var: qurultay belə bir qərar verə bilməzdi. Çünki Nizamnamənin 4.3-cü maddəsi belə bir qərarın verilməsini qadağan edir. Belə ki, MNTK və sərbəst Məclis üzvlərinin seçkisinin keçirilməsi və ona aid protokolların təsdiqi qurultayın müstəsna səlahiyyətinə aiddir və bu səlahiyyətin digər quruma verilməsi nəzərdə tutulmayıb. Məclisin MNTK və sərbəst məclis üzvlərinin seçkisini aparması qurultayın səlahiyyətlərini mənimsəmədir və ona görə də protokolun 13-cü qərarı etibarsız hesab edilməli, yarımçıq qalan qurultayın davamı keçirilərək, bu məsələlər qanuni həllini tapmalıdır.

Nizamnamənin 4.3-cü maddəsində göstərilir ki, qurultay partiyanın proqramını və nizamnaməsini qəbul edir, onlarda dəyişiklik və əlavələr edir və sair. Hesab edirəm ki, göstərdiyim təkzibedilməz faktlar tam deməyə əsas verir ki, hazırda Müsavatda Məclisin rayon təşkilatı sədrlərindən ibarət hissəsi istisna edilməklə, digər strukturların heç biri, o cümlədən başqan və onun əmr və sərəncamları ilə yaradılan strukturlar legitim hesab edilə bilməz.

**- Bildiyimizə görə, bu faktları məhkəmə səviyyəsində mübahisələndirmisiniz. Nəticə necə olub, məhkəmə məsələyə necə qiymət verib?**

- Qısa və konkret olaraq deyim ki, burada göstərdiyim gözdeşən və təkzib edilməsi mümkün olmayan faktları məhkəmə "görmədi" və iddiamızı təmin etmədi. Müsavatda hüquqi normalar daxilində fəaliyyəti bərpa etmək istiqamətində bir ildir ki, Binəqədi Rayon Məhkəməsində və Bakı Apelyasiya Məhkəməsində məhkəmə çəkişməsindəyik. Lakin hesab edirəm ki, məhz Müsavatın indiki dağılmış durumu hakimiyyətə sərf etdiyi üçün məhkəmələr VIII qurultayın protokol sənədlərində başqan, MNTK və sərbəst MNTK və sərbəst Məclis üzvlərinin seçilməsinə aid edilmiş saxtalaşdırmaların etibarsız hesab edilməsi barədə qərar vermir və bununla da Arif Hacılı və İsa Qəmbərə hakimiyyətin hörmət və ehtiramının tam olduğu təsdiqini tapdı. Hakimiyyət, Ədliyyə Nazirliyi bu qanunsuzluqların üstündən keçdi. İndi ölkədaxili son instansiya kimi yalnız Ali Məhkəmə qalır və oradan da hansısa ədaləti gözləmirəm.

**- Siz baş verənlərlə bağlı partiya rəhbərliyinə müraciət etdinizmi?**

- Mən VIII qurultaydan sonra saxta yolla formalaşmış partiya strukturlarının heç birinin legitimliyini tanımadığım üçün heç birinə rəsmi müraciət etməmişəm və proseslər mənim haqlı olduğumu göstərdi.

**- Bu, günlərdə Müsavat Partiyası bir qalmaqalla gündəmə gəldi. Arif Hacılı "Yeni Müsavat" qəzetinin baş redaktoru haqqında qalmaqala səbəb olacaq fikirlər səsləndirdi. Sizcə, əvvəlki başqan İsa Qəmbər də bu cür addım atardımı?**

- Hesab etmirəm ki, kimsə Arif Hacılıdan başqa bu səviyyəli çıxış edə bilərdi. Bu, siyasətçiyə yaraşmayan, Azərbaycan reallığına və mövcud situasiyaya adekvat olmayan bir çıxış idi ki, sadəcə olaraq, bu adam özünün islaholunmaz intriqant olduğunu bir daha təsdiq etdi. Hətta partiyada rayon səviyyəli bir funksionerə də yaraşan mövqe deyildi. Yəni onun tutduğu vəzifənin səviyyəsinə uyğun mövqe deyildi. Arif Hacılı Müsavat Partiyasının başqanı funksiyasını icra edir. Ona heç olmazdı.

**- Sizin Müsavat Partiyasından çıxarılmağınız nə ilə bağlı oldu? Bildiyim qədər, hələ də bununla bağlı rəsmi sənəd ala bilməmisiniz.**

- 2015-ci il fevralın 6-da Sevinc Hüseynova mənə zəng etdi ki, mənimlə partiyada görüşmək, söhbət etmək istəyirlər. Səbəbini soruşdum, dedi ki, Müsavat Partiyası haqqında, Arif Hacılı haqqında yazırsınız. Haşiyə çıxaraq deyim ki, bunlar Arif Hacılını Müsavat Partiyası hesab edirlər. Kiminsə səhvlərini göstərirsənsə, demək, partiyaya qarşısan. Həmişə çalışıblar o şirmanın arxasında gizlənsinlər... Hə, dedi ki, bəlkə o faktları bizə göstərəsiniz? Şərtləşdik ki, görüşdə çəkiliş olacaq, videoya alınacaq, başqa maraqlı şəxslər də iştirak edəcək. Razılaşdıq. Getdim, amma alınmadı. Dedilər ki, çəkiliş olmayacaq, mən də görüşdə iştirak etmədim. Amma sonra sosial şəbəkədə belə məlumat yaydılar ki, guya MNTK-nın yığıncağında iştirak etmişəm, orada mənim partiya məsələm müzakirə olunub və məni partiyanın əleyhinə apardığım təbliğatla əlaqədar olaraq partiyadan azad ediblər. Maraqlıdır ki, çıxarılmağım barədə indiyədək ortada sənəd yoxdur. Bununla bağlı məhkəməyə müraciət etdim, məhkəmə qərar da çıxartdı ki, bu sənəd mənə verilsin, amma vermədilər.

**- Əlövsət bəy, müsahibə boyunca bir neçə dəfə Arif Hacılı barədə intriqant ifadəsi işlətdiniz. Bu barədə faktlara maliksinizmi?**

- Bu barədə çox geniş danışmaq olar və onlarla faktları sadalaya bilərəm. Amma bu məsələyə vaxt ayırmaq istəmirəm. Ancaq bir şeyi deyim: 1992-ci ildən üzü bəri Müsavatdan getmiş görkəmli və geniş ətrafı olan simaların getməsinin səbəbləri barədə araşdırma aparsanız, görəcəksiniz ki, əksəriyyətinin rxasından Arif Hacılının intriqant fəaliyyəti çıxır. Bir də ki, mən onun xarakterinə yaxşı bələdəm axı. Bu adam o dərəcədə xırdaçı intriqantdır ki, mənim VIII qurultayda baş verən seçki pozuntuları barədə yazılarıma görə və məndən qisas almaq məqsədilə Müsavat Partiyası adından hazırda oğlum Tural Sadıqlının mühacir kimi yaşadığı ölkənin səfirliyinə məlumat göndərilib ki, guya biz ata və oğul hakimiyyətə yaxın adamlarıq.

**- Proseslərdən göründü ki, İsa Qəmbər partiyanı Arif Hacılıya etibar etdi. Sizcə, Arif Hacılını yaxşı tanımırdı?**

- Hesab edirəm ki, bu, İsa Qəmbərə verilməli sualdır və ona görə də bu suala ətraflı cavab verməyə ehtiyac duymuram. Yəqin ki, özünəməxsus planları var. Amma məsələ tam aydın və göz qabağındadır ki, İsa Qəmbər də Arif Hacılını yaxşı tanıdığına, güclü Müsavatı idarə edəcək qabiliyyətə malik olmadığını bildiyinə görə Müsavatı Arif Hacılının boyuna biçdi.

**- ADR-in hazırda fəaliyyəti necədir? Referendum hazırlıqları varmı?**

- ADR-in adından danışmaq səlahiyyətim yoxdur, bu funksiyanı daşımıram. Amma hesab edirəm ki, ADR hazırda təşkilatlanma işi ilə məşğuldur. Bütün rayonları əhatə edə bilməmişik. Əsasən o işlə məşğuluq. Hazırkı situasiyaya uyğun olaraq, referendumla da əlaqədar ADR öz mövqeyini də ortaya qoyub. Mətbuatdan dəfələrlə ADR-in adından və ADR-in sədri adından bu bəyanatlar səsləndirilib. Hesab edirəm ki, ADR ictimai qurum olmasına baxmayaraq, referendumla bağlı siyasi partiyalara nümunə olacaq səviyyədə ardıcıl və prinsipial mövqe nümayiş etdirir.

❑ Röya RƏFİYEVA

YENİ MÜSAVAT
N 173 (6494) 9 avqust 2016



# Türkmənçay çoxdandır yenilənmir

Zamin HACI
zaminhaci@gmail.com

**İran və Rusiya prezidentləri Bakıya gəlmişkən Türkmənçay müqaviləsini təzələmək də olardı. Çoxdandır regionda kimisə parçalamırlar. Ac ayı ilə gözü doymayan şirin qonaqlığı üçün Kür-Araz ovalığı tarixi məkan olmuşdur. Ovalıq elə ov kökündən yaranmışdır. Azərbaycan həmişə ov yeri olubdur. Ərəb gəlib ovlayıb, monqol-tatar gəlib quşlayıb, rus gəlib, fars gəlib, ermәni gəlib...**

Bizim işimiz, əlbəttə, ovçulara xidmət sektorudur. Putin və Ruhanini Bakıda görmək çoxumuzun uşaqlıq arzumuz idi. Elə sevinirik, elə sevinirik, heç darbədən çıxıb mitinqə düşmüş türklər belənçik sevinmir. Bəs necə, iki ağa təşrif buyurubdur, özü də birdən. Ermənilər paxıllıqdan intihar eləyəcəklər, torpaqlar boş qalacaq, ondan sonra gedib İsa bulağında əylənərik. Üstəlik, hazırda sezondur.

Sözgəlişi, İsa bulağını hasara almaq mümkündürmü? Şuşalı yoldaşlardan soruşmaq istəyirəm. Əgər mümkün olmasa, daha ora bizim nəyimizə gərəkdir? Mütləq hasarlanmalıdır. Yaxşı olar 3 metrlik hasar olsun - Bakıda köhnə Karl Marks heykəlinin yerinin qabağında tikilən sarayın hasarından. Bu əndirəbadi cümlənin günahı məndə deyil. Azərbaycan tamamən bu cürdür. Harasa gedirsən, adı var, özü yoxdur. Tarix var, həm də yoxdur. Dövlət var, eyni zamanda yox kimidir. Xalqın adı var, hətta BMT-də hesabata-zada düşür, di gəl, başına haçan istəsən referendum corabı hörə bilirsən, cınqırı çıxmır. Gorun çatlasın, Marks. Yaxşı ki, bu günləri görmədin. "Azərbaycanda bir hasar kabusu dolaşır".

Bunu qoyum ona gedim söhbəti olmasın, təzəlikcə yolum Bakının Təbriz küçəsindən düşmüşdü. Orda böyük park vardı, bir ucu "Gənclik" metrosuna çatan meşə kimi yer idi. Belə böyük parkları ancaq Berlində, Kiyevdə görmüşəm. SSRİ dağılanda park yerində qalırdı, yalnız cəbhəçilər Dzerjinskinin heykəlini uçurtmuşdular, postament qalmışdı. Kaş uçurtmazdıq - indiki milli çekistlərimizin hərəkətlərinə baxanda Dzerjinskinin ətəyində namaz qılmaq olarmış. İndi o parkdan əsər-əlamət qalmayıb, hər kvadrat metrində bir restoran, çayxana, kafe, şadlıq sarayı açılıb. Bir hissəsi avtomobil yolunun, bir hissəsi də oyuncaq ali məktəbin güdazına gedib.

Görəsən niyə biz azərbaycanlılar təbiətə ancaq yemək-içmək yeri kimi baxırıq? Ağac bizdən ötrü budağından qoyun cəmdəyi asmaq üçün alətdir. Bulaq gözündə qarpız soyutmaq üçündür. Əks halda, nəyə lazımdır? Qumluq dəniz sahili hasarlamaq, çay kənarı daş karyeri üçündür. İnsanın kainatda xərçəng hüceyrəsi olması haqda bir elmi nəzəriyyə var. Doğrudan da insan hara düşsə təbiəti kor qoyur. Əgər bu nəzəriyyə doğrudursa, biz azərbaycanlılar bu xərçəngin geriyə dönməz, metastaz formalarından biriyik.

Qayıdaq geopolitik temaya. Məncə, Putin və Ruhaninin ayaqaçdısından sonra Bakını nəsə bir siyasi klub elan etmək mümkündür - uyğun xarakterli dövlətlər üçün. Şimali Koreyadan Kim Çen İn müəllimi, Afrikadan Muqabeni, Karib bölgəsindən hansısa haitili zombini də toplayıb gətirək Bakımıza, olsun bir diskussiya məkanı. Düzdür, belə tiplər adətən diskussiyanı yox, monoloqu sevirlər, ancaq eybi yox, hər cür şərait yaradarıq, istəsələr hər biri öz-özünə danışar. Ümid eləyək Amerikada da Tramp prezident seçilər - planetin başqa xalqlarına yapdıqlarının əvəzində buna layiqdirlər - ilk səfərini elə bizim Azərbaycana edər. Niyə də yox? Ruhani və Putindən daha ruhani adamdır? Molla Nəsrəddinin ələyə dediyi kimi. Bir gün Molla evə girəndə ələyin qırağı qalır ayağının altında, ələk qalxır dəyir alnına. Mollanın gözündən tüstü çıxır, ələyə bir təpik ilişdirir. Bu dəfə ələk divara dəyib elastik şəkildə hoppanır və yenə Mollanın sifətindən çırpılır. Molla hirslənib bir bıçaq götürür, deyir: "Gəlin, hamınız gəlin, bütün ələklərə deyin, gəlsin".

Özü də ələk bərəkət rəmzidir, un üyüdürlər. Ruhani ilə Putin Bakıda nə üyütdülər, təndirə yapılanda bilərsiniz.



# "7 avqust İstanbul mitinqi Türkiyənin tarixinə qızıl hərflərlə yazılacaq"

## Mehman Əliyev: "Türkiyə dünyəvilikdən imtina etməyəcək; daha çox demokratik dövlətin gücləndirilməsi prosesi gedəcək"

**"Türkiyədə baş verən son hadisələr bir daha göstərdi ki, Türkiyə dünyəvilikdən imtina edə bilməz, bu, heç mümkün də deyil. Türkiyənin ən böyük potensialı turizm, ticarətdir. Bunun üçün gərək insanlar üçün açıq, cəlbedici dövlət olasan. Türkiyə məhz bu keyfiyyətlərinə görə qazanır. Türkiyə dünyəvilikdən imtina etsə, batar".**

**"Turan" informasiya agentliyinin direktoru Mehman Əliyev** bazar günü Türkiyənin İstanbul şəhərində milyonlarla insanın qatıldığı, iqtidar, müxalifət, ordu rəhbərliyinin iştirakı ilə keçirilən, demokratiya və şəhidlərə həsr olunmuş möhtəşəm mitinqi dəyərləndirərkən söylədi. Ekspert bildirdi ki, hazırda da Türkiyəyə ciddi təsirlər var: "Türkiyənin hansı ölkələrin əhatəsində olduğunu görürük. Ancaq Türkiyə heç vaxt dünyəvilikdən imtina edə bilməz. Ona görə ki, birincisi, bu, iqtisadi tələbdir. İkincisi də son olayları gördük, xalqın meydana çıxması və daha çox demokratiyanı seçməsi çox şeyi deyir. Bu fakt deyir ki, insanlarda demokratiyaya meyllilik var".

**M.Əliyev əmindir ki, 15 iyul hadisələri birdən-birə baş verməyib:** "Son 20 ildə açıq şəkildə ordu ilə hakimiyyət arasındakı qarşıdurma və Türkiyənin normal demokratik dövlətə çevrilməsi prosesinə münasibətdə bir ziddiyyət var idi. Son olaylar onu göstərirdi ki, ötən illər ərzində Ərdoğanın komandası və tərəfdarları kifayət qədər işləyib. Başqa vaxt bəlkə də dövlət çevrilişinə cəhd əməliyyatı uğurla başa çatdırıla bilərdi. Ancaq ilk dəfə idi ki, ordu bu əməliyyatı həyata keçirə bilmədi. Çevriliş ona görə alınmadı ki, Ərdoğanın komandası hazırlanan çevriliş cəhdinə qarşı çox ciddi hazırlaşmışdı. İkinci tərəfdən də prinsipcə, Türkiyənin özündə də demokratik ənənələr və demokratik əhval-ruhiyyə daha da güclüdür. Yəni insanların tankların qarşısına çıxması, etiraz etməsi də Türkiyə ənənəsi deyildi. Əgər bu proses kortəbii getməyibsə, buna hazırlıq görülübsə və bundan sonra nə etmək lazım olduğunu bilirlərsə, deməli, Türkiyədə gedən prosesləri idarəolunandır. Digər tərəfdən də son izdihamlı mitinqə nəzər yetirsək deyə bilərik ki, Ərdoğanın siyasəti və mövqeyi bu gün cəmiyyətdə və orduda dəstəklənir. Türkiyədə hərbi yolla hakimiyyətin dəyişdirilməsi ənənəsi bitir, bu, çox vacib məsələdir".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə "Yeni Müsavat"a bildirdi ki, 7 avqust İstanbul mitinqi Türkiyənin tarixinə qızıl hərflərlə yazılacaq:** "Birincisi, bu mitinq böyük ehtimalla Türkiyənin gələcəyindən hərbi çevrilişləri silib atdı. Az qala hər 10 ildən bir Türkiyədə hərbi çevriliş olurdu. Türkiyədə hərbi çevrilişlər dövrü arxada qaldı. Türkiyədə hərbi çevrilişin uğur qazanması ölkənin vətəndaş müharibəsinə sürüklənməsi deməkdir".

**Ekspertə görə, İstanbul mitinqi yalnız Ərdoğanın və ya hakim AKP-nin qələbəsi deyildi:** "Bu, bütün Türkiyə cəmiyyətinin mitinqi və qələbəsi idi. Hərbi çevrilişi dəf edənlər içərisində əhalinin bütün təbəqələri var idi. Ona görə də mitinqə müxalifət partiya liderlərinin qatılması təsadüfi deyildi. Bu, Türkiyə siyasi tarixində bir ilk idi. Buna qədər hakimiyyətlə müxalifət daima sərt polemika içində olub. İndi isə münasibətlər sistemi dəyişməlidir. "Darbeçilər" parlament binasını bombalamaqla tək AKP-ni deyil, Türkiyənin bütün siyasi sistemini hədəf almışdılar. Ona görə də bu təhlükə qarşısında hakimiyyətin müxalifətlə uzlaşmasına ehtiyac var. Əlbəttə, hakimiyyətlə müxalifət bir-birilərini tənqid etməlidirlər, bu, siyasi nəzəriyyənin qanunudur. Ancaq həmin nəzəriyyə partiyalar arasında az qala düşmənçiliyə çevrilən yanaşmanı da zəruri saymır. Düşünürəm ki, indi çox şey Ərdoğanın ritorikasından asılıdır. Ərdoğan hərbi çevriliş cəhdinə qədər müxalifət partiya liderlərinə qarşı çox ağır ifadələr, tənqidlər işlədirdi, müxalifət liderləri də eyni tərzdə ona cavab verirdilər. Ərdoğan bundan sonra eyni ritorikanı təkrarlamamalıdır. Əks halda, cəmiyyətdəki birlik çox qısa zaman kəsiyində ortadan qalxacaq". **E.Şahinoğlu hesab edir ki, Ərdoğan nəyin bahasına olursa-olsun, prezident səlahiyyətlərini artıran konstitusiya dəyişikliklətinə getməməlidir:** "İndi Türkiyənin problemi fərqlidir. Əsas Gülən hərəkatı ilə mübarizəni gücləndirmək lazımdır və bu mübarizədə Ərdoğanın müxalifətin dəstəyinə ehtiyacı var. Digər tərəfdən, Ərdoğan nəyin bahasına olursa-olsun ölüm cəzasının tətbiqini də geri qaytarmamalıdır. Bu məsələdə də müxalifətlə konsensusa ehtiyac var. Tutaq ki, ölüm cəzası Türkiyədə bərpa olundu, hakimlər insanları qətlə yetirən hərbçiləri asmaq istəsə, onlardan soruşacaqlar: Bəs on minlərlə insanın qətlinin baiskarı olan PKK lideri Abdulla Öcalan niyə ölüm cəzasına məhkum edilmir? Türkiyə hakimiyyəti Öcalanı asa biləcəkmi? Əgər asa bilməyəcəksə, yalnız "darbeçilər"in ölümə məhkum edilməsi Türkiyə cəmiyyətində növbəti ikitiriləyə səbəb olacaq. İstanbuldakı mitinqdə xaricə də mesaj var idi. Ərdoğan bu mitinqlə Qərbin diqqətini Gülən faktoruna cəlb etmək istəyirdi. Təəssüf ki, Qərbin Gülənə münasibəti müsbətdir və onu terrorçu hesab etmir. Halbuki türkiyəli mütəxəssislərin bir qismi Gülən hərəkatını hətta PKK-dan da təhlükəli qruplaşma sayırlar. Ərdoğan bu mitinqlə Qərbə göstərdi ki, milyonlarla insan Gülənin ekstradisiyasını istəyir və əgər bu baş tutmazsa, Ankaranın ABŞ və Avropa ilə münasibətləri dərin yara alacaq. Məncə, Qərb ölkələri təhlükənin miqyasını hələ anlamırlar. Qərb bir nəfərə görə Türkiyəni əldən verir. Türkiyə üzünü Rusiya tərəf çevirir. Əlbəttə, bunun da təhlükələri var. Ancaq Qərb Ankaraya alternativ seçim imkanı qoymur".

### Elxan Şahinoğlu: "Ərdoğan bu mitinqlə Qərbə göstərdi ki, milyonlarla insan Gülənin ekstradisiyasını istəyir və əgər bu baş tutmazsa, Ankaranın ABŞ və Avropa ilə münasibətləri dərin yara alacaq"

**Ekspert qeyd etdi ki, mitinqdə Azərbaycanın bayrağının dalğalanması da qürurverici idi:** "Bu, o deməkdir ki, "darbeçilər"lə mübarizədə Azərbaycan Türkiyənin yanındadır. Bayraqlarımızın İstanbuldakı mitinqdə dalğalanması həm də o deməkdir ki, Fətullah Gülən Azərbaycan üçün də böyük təhlükədir".

**YAP-ın icra katibinin müavini, deputat Siyavuş Novruzov dedi ki, Türkiyədə hansı partiyanın hakimiyyətdə olmasına baxmayaraq iki qardaş ölkə bir-birinin yanındadır:** "Dəfələrlə Türkiyə və Azərbaycan dövlətlərinin rəhbərləri ölkələrimizi müdafiə ediblər. Bu məsələdə də Azərbaycan Türkiyə dövlətinin yanındadır. Türkiyənin böyük dövlətçilik tarixi var. Təbii ki, ayrı-ayrı güc mərkəzləri Türkiyə kimi böyük, müstəqil, inkişaf etmiş bir dövlətin olmasını istəmir. Ona görə də vaxtaşırı orada qarışıq salmağa, terror aktları ilə iqtisadiyyata zərbə vurmağa, Türkiyəni bölməyə çalışırlar. Bu mənada Türkiyənin guya imperiya iddialarına düşdüyü, dünyəvilikdən imtina etdiyi, dini dövlətə çevrilməsi barədə iddialar Qərb mətbuatında dərc olunur və ictimaiyyəti çaşdırmağa xidmət edir. Bu isə Türkiyədəki vahid mövqeyin, birliyin qorxusundan irəli gəlir. Türkiyənin sürətlə inkişaf etməsi, inflyasiyanın sıfıra endirilməsi, ordunun ən güclü dünya ölkələrinin ordularından birinə çevrilməsi çoxlarını narahat edirdi". **S.Novruzov Türkiyənin dünyəvilikdən imtinasını mümkün saymır:** "Türkiyənin Atatürk tərəfindən təməli qoyulmuş respublika prinsipləri türk xalqının daxilindən gələn bir məsələdir". **Deputat dedi ki, aksiyaya azərbaycanlı tələbələr, ayrı-ayrı şəhərlərdə çalışan Azərbaycan vətəndaşları da qatılıb və Türkiyəyə dəstək verib:** "Bizim partiya ilə AKP arasında əməkdaşlıq haqqında müqavilələr imzalanıb. Söhbət təkcə AKP-dən yox, Türkiyə dövlətinə dəstəkdən gedir".

### Siyavuş Novruzov: "Türkiyənin Atatürk tərəfindən təməli qoyulmuş respublika prinsipləri türk xalqının daxilindən gələn bir məsələdir"

**E.PAŞASOY**

# Rusiyanın yeni Avrasiya projesi - Azərbaycan və Türkiyə də maraqların hədəfində

## Kremlin regionda artan fəallığı yeni imperativlər ortaya çıxarıb; Moskva bütün iqtisadi və geosiyasi layihələrin episentrində olmağa can atır; Ermənistanla sərhədlər açılır?..



**Avrasiya məkanında son iki ayda baş verən hadisələr fonunda Rusiyanın fəallığı xüsusilə nəzərə çarpır. Moskva bölgədə hökm sürən münaqişələrdən və təlatümlərdən yararlanaraq ipləri öz əlinə almaq istəyir. Rusiyanın regiondakı siyasi aktivliyi ilə bağlı "Kommersant" qəzetində "Rusiya Avrasiya məkanında toparlanır" adlı təhlil xarakterli yazı dərc olunub:**

"Bakıda aparılacaq danışıqlarda "Şimal-Cənub" və digər strateji sərmayə layihələri müzakirə ediləcək. Bütün bunlar böyük Avrasiya diplomatik marafonunun tərkib hissəsidir" deyə qəzet qeyd edir. Bugünkü (dünənki-red.) üçtərəfli sammitin prioritet mövzusunun iqtisadi-ticari və sərmayə əməkdaşlığı olması elə Rusiya heyətinin tərkibindən də bilinir. Belə ki, Vladimir Putinlə birlikdə baş nazirin müavini Dmitriy Roqozin, xarici işlər naziri Sergey Lavrov, enerji və nəqliyyat nazirləri Aleksandr Novak və Maksim Sokolov, iqtisadiyyat naziri Aleksey Ulyokayev, habelə Rusiya Dəmiryollarının vitse-prezidenti Aleksandr Mişirinvə "Rosneft"in başçısı İqor Seçin də gəlib.

Xatırladaq ki, Vladimir Putin Azərbaycanın "AzərTAc" agentliyinə verdiyi müsahibədə uzunluğu 7,2 min km-ə çatan "Şimal-Cənub" nəqliyyat dəhlizinin flaqman layihə olduğunu qeyd edib. Putin İran, Hindistan, İran körfəzi ölkələrindən gələn yüklərin bu dəhliz vasitəsilə Rusiya ərazisinə, oradan da Şimali və Qərbi Avropaya daşınacağını söyləyib. Rusiya prezidenti Azərbaycanın Rusiyanın postsovet ölkələrindəki iqtisadi partnyorları içində 5-ci yeri tutduğunu xüsusilə qeyd edib.

Rusiya İranla da əməkdaşlığı olduqca genişləndirir. Rəsmi Moskva İrana Bəndər-Abbas şəhərində tikiləcək İstilik Elektrik Stansiyasının, habelə ölkənin şimal-şərqində Germsar -İncəburun dəmiryol məntəqəsinin tikilişi üçün 2,2 milyard dollarlıq kredit verəcək. Putinin Türkiyə prezidenti, daha sonra isə Ermənistan prezidenti ilə keçirəcəyi görüşlər ərəfəsində Avrasiyada inteqrasiya proseslərinin sürətləndiyini göstərən daha bir əlamətdar hadisə baş verib. Belə ki, keçən həftə Qazaxıstan prezidenti Nursultan Nazarbayev 15 iyul hərbi çevriliş cəhdindən sonra Ankaraya rəsmi ziyarət gerçəkləşdirib.

Ankarada danışıqların sonunda keçirilən mətbuat konfransında Türkiyə lideri ABŞ və Avropa Birliyinin ünvanına sərt ifadələr səsləndirib. Nazarbayev isə öz növbəsində Türkiyə və Qazaxıstanın Rusiya məsələsində eyni baxışlara sahib olduğunu və Türkiyənin Şanxay əməkdaşlığı təşkilatında iştirakından məmnun olacağını bildirib. Ərdoğan isə öz növbəsində Rusiya prezidenti ilə Sankt-Peterburqda həyata keçirəcəyi görüşdə "iki ölkə arasında münasibətlərin əvvəlki vəziyyətə qayıdacağını" söyləyərək rəsmi Moskva ilə münasibəltərin düzəlməsində Qazaxıstan prezidentinin rolunu xüsusilə qeyd edib.

"Əgər son dövrə qədər Avrasiya inteqrasiyasının əsas mühərrikləri rolunda Rusiya və Qazaxıstan iştirak edirdisə, indi üçüncü mühərrik kimi Türkiyə daxil ola bilər. Avrasiyanın aparıcı dövlətinin regionda inteqrasiya proseslərinə qoşulması Peterburq sammitinin ən böyük nəticəsinə çevrilə bilər", - deyə Rusiya-Şərq-Qərb" strateji araşdırmala mərkəzinin direktoru Vladimir Sotnikov bildirib"

İran da İran-Türkiyə-Rusiya əməkdaşlığında maraqlı olduğunu gizlətmir. Musavat.com xəbər verir ki, bu barədə İran xarici işlər nazirinin müavini İbrahim Rəhimpur «RİA Novosti»yə müsahibəsində danışıb. "Biz ərəblərlə və Qərb dövlətləri ilə müqayisədə regional problemlərin öhdəsindən daha asanlıqla gələ bilərik" deyə iranlı diplomat bildirib. Onun sözlərinə görə, İran Ərdoğanın Rusiyaya səfərində çox maraqlıdır və İran prezidenti Bakıda Vladmir Putinlə görüşdə Türkiyə prezidentinə kömək göstərilməsi məsələsini də müzakirə edəcək. **"Biz cənab Putinlə birlikdə cənab Ərdoğana ölkəsində vəziyyətin düzəlməsi və onun doğru qərarlar alması üçün yardım etmək istəyirik. Bu, Suriya, İraq kimi regional məsələlərdə mühüm rol oynaya bilər. Fikirləşirəm ki, cənab Ruhani və cənab Putin Türkiyə prezidentinə kömək etməyə və onu dəstəkləmyə hazırdırlar. Bizim regionun Rusiya, Türkiyə və İran arasında normal münasibətlərin olmasına çox ehtiyacı var"**, - deyə yüksək rütbəli iranlı deputat bildirib.

"Kommersant" qəzeti sözügedən məqalədə Vladimir Putin və Rəcəp Tayyib Ərdoğan arasında keçiriləcək görüşlə bağlı daha bir mühüm məqama, Türkiyə-Ermənistan münasibətlərinə də toxunub. **"Rusiya, Azərbaycan və Türkiyə liderləri arasında kontaktların yüksək səviyyədə canlanması Moskvada gerçəkləşdiriləcək daha bir vacib görüşün - Vladmir Putin və Serj Sərkisyan arasında müzakirələrin proloqu olacaq"**, - deyə qəzet qeyd edir.

**"Bu, Ermənistan prezidentinin son bir ayda Moskvaya gerçəkləşdirdiyi ikinci ziyarətdir. Xatırladaq ki, əvvəlki görüş Sankt-Peterburq şəhərində Rusiya, Azərbaycan və Ermənistan prezidentləri arasında Dağlıq Qarabağ zonasında gərginliyin azaldılması ilə bağlı baş tutmuşdu. Lakin həmin üçtərəfli sammitdən sonra münaqişənin nizamlanması daha qeyri-müəyyən xarakter alıb. İrəvanda baş verən silahlı qiyam Ermənistanda radikal əhval-ruhiyyənin qalxdığını və Serj Sərkisyanın mövqelərinin zəiflədiyini göstərdi.**

**Bu situasiyada isə Sərkisyan öz rejiminin qorunub saxlanması üçün başlıca oyunçuların dəstəyinə ciddi ehtiyac duyur. Rusiyadan başqa Ermənistan üçün belə oyunçulardan biri kimi, nə qədər gözlənilməz olsa da, onun barışmaz düşmənlərindən Türkiyə iştirak edə bilər. Türkiyə KİV-ləri də Ərdoğanın xarici siyasətdəki münaqişə potensiallarını azaltmaq üçün Ermənistanla əlaqələri düzəltlməkdə maraqlı olduğunu yazır. Qəzetlərdən birinin yazdığına görə, Türkiyə və Emənistan arasında təmasların bərpası əslində iyul ayında baş verməli idi, sadəcə hərbi çevriliş cəhdi buna mane olub. Bu səbəbdən hər iki prezidentin arxa-arxaya Rusiyaya edəcəkləri ziyarətin həmin ölkələr arasında münasibətlərin normallaşması üçün əsas ola bilər".**

Məsələ ilə bağlı erməni politoloqları da rəy bildiriblər. Musavat.com-un bir erməni saytına istinadən verdiyi məlumata əsasən, Ermənistanın keçmiş diplomatlarından Arman Məlikyan *(bu adam vaxtilə qondarma "Dağlıq Qarabağ Respublikasının "xarici işlər naziri" vəzifəsinə də "ezam edilib")* bunları deyib: **"Mən Türkiyənin Qababağ münaqişəsinə cəlb ediləcəyini demək olar ki, istisna edirəm. Kreml Cənubi Qafqaz zonasını özünün müstəsna təsir bölgəsi saydığı üçün Ankaranı 1921-ci il Moskva müqaviləsinə uyğun olaraq davranmağa məcbur etməyə və onun Cənubi Qafqazdakı ambisiyalarını məhdudlaşdırmağa çalışır».**

❑ **Vaqif HÜSEYN**



# Bu gün Ərdoğanla Putin arasında tarixi görüş olacaq

## Təyyarə insidentindən sonra ilk dəfə Sank-Peterburqda bir araya gələcək liderlər Türkiyə və Rusiya arasında əlaqələrin yeni "Yol xəritəsi"ni müəyyən edəcəklər...

**Bu gün Rusiyanın Sank-Peterburq şəhərində Rusiya və Türkiyə prezidentləri arasında görüş keçiriləcək. Prezidentlər Vladimir Putun və Rəcəb Tayyib Ərdoğan məlum təyyarə insidenti ilə korlanmış ikitərəfli əlaqələrin bərpasından sonra ilk dəfə bir araya gələcəklər.**

Rəsmi məlumatlara görə, tərəflər aradakı soyuqluq nəticəsində geriləmə qeydə alınmış bütün sahələr üzrə konstruktiv müzakirələr aparacaq. "Liderlər hazırkı bütün problemləri müzakirə edəcəklər. Öncə Ərdoğan və Putin təkbətək görüşəcək, sonra heyətlər arasında görüş olacaq" - Ərdoğana yaxın mənbə bildirib.

"Ümid edirəm ki, Türkiyə-Rusiya münasibətləri əvvəlki səviyyəyə qayıdacaq". Bunu **prezidenti Rəcəb Tayyib Ərdoğan** Peterburqa yola düşməzdən öncə bəyan edib. "Rusiya ilə bütün münasibətlərimizi inkişaf etdirəcəyik". Bunu isə o, "əl-Cəzirə" telekanalına verdiyi müsahibəsində deyib.

Müsahibədə o, Putinlə keçirəcəyi görüşlə bağlı maraqlı açıqlamalar da verib. "Vladimir Putin çevrilişə cəhddən bir gün sonra mənə zəng etdi. Şəhidlərimiz üçün başsağlığı verdi, yaralılarımıza şəfa dilədi. Rusiyanın hər zaman bizim yanımızda olduğunu dedi. Çərşənbə axşamı Rusiyaya gedəcəyəm. Yanımda Rusiyada böyük sərmayələri olan böyük iş adamları da olacaq. Ticarət, hərbi, iqtisadi və siyasi münasibətlərimizi gücləndirməyə çalışacağıq" - Ərdoğan bildirib. Türkiyə lideri Peterburq görüşü zamanı iki dövlətin regiondakı maraqlarının da müzakirə ediləcəyini deyib.

Türkiyənin Rusiyadakı səfiri Ümid Yardım isə ölkə rəhbərlərinin iki ölkə münasibətlərini daha yüksək səviyyəyə qaldırmaq üçün "Yol xəritəsi" hazırlayacaqlarını söyləyib. "Əminliklə deyə bilərəm ki, bu, tarixi bir görüş olacaq. Biz bir aydır ki, bu görüşə hazırlaşırıq" - səfir vurğulayıb.

Prezident Ərdoğan da TASS-a münasibətində bunun tarixi bir görüş olacağını deyib. "Bu - tarixi bir səfər, yeni başlanğıc üçün görüş olacaq" deyən Ətrdoğan Putini dost adlandırıb. "İnanıram ki, dostum Vladimirlə danışıqlarda ikitərəfli əlaqələrdə yeni səhifə açılacaq. Qarşıda bizim ölkələrimizin birgə görəcəkləri çox iş var " - Türkiyə lideri vurğulayıb.

***

Xarici KİV-lərin də səfərə marağı böyükdür. Bunu ən əvvəl siyasi şərhlərdən görmək olar. "Avqustun 9-da Sankt-Peterburqda Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın rusiyalı həmkarı Vladimir Putinlə keçiriləcək. Görüş Ankaranın Moskvaya meyl etməsinin başlanğıcı olacaq".

Bu iddia ilə "Foreyn Polisi" nəşri çıxış edib. Nəşrin yazdığınaə görə, tərəfləri birləşdirəcək xüsusi bir səbəb yoxdur. Sadəcə, Suriya prezidenti Bəşər Əsədin mövqeyinin bərpası artıq hər iki tərəfin maraqlarına cavab verir: "Rusiyanın və İranın Suriyada apardığı əməliyyatlar göstərir ki, Bəşər Əsəd hələ uzun müddət öz hakimiyyətini qoruyub saxlayacaq. Türkiyə prezidenti bu inkarolunmaz faktı görməzdən gələ bilməz. Ərdoğanın bu əməkdaşlıqda Əsəddən başqa maraqları da var. O, Kürd İşçi Partiyasını (PKK) və Xalqların Demokrat Partiyasını (HDP) darmadağın etmək istəyir. Bunun üçün onun müttəfiqlərin dəstəyinə - Rusiya və İrana ehtiyacı var. ABŞ Türkiyəyə istədiyi köməyi göstərmədikcə, Türkiyə Rusiyaya can atmağa davam edəcək".

Bir sıra Qərb analitikləri isə Türkiyədəki uğursuz hərbi çevriliş cəhdindən sonra ABŞ və Avropadan incikliyi artan Ankaranın Moskva ilə daha sürətlə yaxınlaşa biləcəyini, NATO və Avropa Birliyi ilə əlaqələrin isə zəifləyəcəyini proqnoz edirlər.

Peterburq görüşündə Qarabağ məsələsinə də toxunulacağı istisna deyil. Hər halda, bu görüş ən azından konfliktin həlli üçün daha məqbul atmosferin yaradılması baxımından önəmli ola bilər.

❑ **Siyasət şöbəsi**

YENİ MÜSAVAT
N 173 (6494) 9 avqust 2016

**Deputat Rüfət Quliyevin sələmçilik fəaliyyəti geniş müzakirə mövzusuna çevrilib. Ötən sayımızda "Deputat Rüfət Quliyev sələmə pul verirmiş" sərlövhəli yazıda məsələnin mahiyyəti haqda geniş məlumat verdiyimizdən qısaca qeyd edirik ki, Rüfət Quliyev Səbayel Məhkəməsinə iddia təqdim edərək 2011-ci ildən başlayaraq Namiq Səfərova sələmə pul veridiyini, məbləğin faizlərlə birgə 328 min dollar olduğunu qeyd edib. N.Səfərov 2015-ci ilin fevralında dünyasını dəyişib. Deputat iddiasında 328 min dolların mərhumun əmlaklarına yönəldilməsini tələb edir.**

# Faizə pul verən deputata qarşı yeni sensasion ittihamlar

## Dünyasını dəyişən iş adamının xanımı **Nuranə Səfərova:** "Rüfət Quliyev 40 ildən çox yaxın dostluq etdiyi şəxsin başsız ailəsinə qarşı açıq şəkildə təqiblər həyata keçirir"; Lənkəranın deputatının sələmçilyinin yeni təfərrüatları; o, pulun oğlu tərəfindən faizə verildiyini iddia edir

Bu arada deputatın telefonlarını qapadıb xaricə getməsi isə onun xoşagəlməz fəaliyyət haqda danışmaq istəməməsi qənaətini formalaşdırıb. Elə bugünlərdə deputatın sələmə pul verdiyi mərhum Namiq Səfərovun həyat yoldaşı Nuranə Səfərova Milli Məclisin sədri Oqtay Əsədova müraciət ünvanlayıb.

**N.Səfərova müraciətində yazır:** "Sizə müraciətimin səbəbi deputat Rüfət Quliyevin deputat adına yaraşmayan əməllərlə və qanunsuzluqlarla məşğul olmasıdır. Belə ki, tək qadın olaraq 2 uşağıma baxmağıma imkan verməyən R.Quliyev bizdən əsassız pul və faizlər tələb edir. Belə ki, deputat Rüfət Quliyev, vəkil Kamandar Nəsibov və Səbayel Rayon Məhkəməsinin hakimi Zaur Əliyev birləşərək mərhum həyat yoldaşımdan qalmış birgə mülkiyyətimiz olmuş əmlaklarımı əlimdən almağa çalışırlar. Həyat yoldaşım rəhmətə getdikdən sonra onun yaxın dostu olmuş deputat Rüfət Quliyev başsız qalan qadın olaraq məndən əmlaklarımı almağa çalışır. Deputat Rüfət Quliyev həyat yoldaşımın ölümündən sui-istifadə edərək, mənim sahibsizliyimdən fürsət kimi bəhrələnərək 40 ildən çox yaxın dostluq etdiyi şəxsin başsız ailəsinə qarşı açıq şəkildə təqiblər həyata keçirir. Hətta deputat statusuna məhəl qoymayaraq kimsəsiz ailənin əmlakını ələ keçirmək üçün hüquqi "əsas" yaradaraq, tarixi olmayan primitiv formada saxta öhdəlik müqaviləsi hazırlatdıraraq məhkəməyə təqdim edib. Həmin öhdəlikdə guya keçmiş həyat yoldaşıma faizə pul verib".

Mərhum iş adamının həyat yoldaşı müraciətində qeyd edir ki, deputat Rüfət Quliyev əmlaklarını ələ keçirmək üçün şəxsən ona etdiyi təzyiq nəticəsində son əlac kimi özünə qəsd etmə həddinə çatıb.

**N.Səfərovanın vəkili Ceyhun Yusifov "Yeni Müsavat"a bildirib ki, deputatın məhkəməyə təqdim etdiyi öhdəlik müqavilələri N.Səfərov dünyasını dəyişəndən sonra tərtib edilib:** "Həmin öhdəlik müqavilələrində tarix yoxdur, birdən-birə 8-9 öhdəlik haqda qeydlər var. Daha çox 1-ci sinif uşağının qaralama dəftərini xatırladır. Rüfət Quliyev iddia edir ki, pulu ayrı-ayrı vaxtlarda verib. Belədirsə, bəs niyə 8-9 öhdəlik müqaviləsinin əvəzinə ortada 1 müqavilə var? Bu gün ortada 8-9 müqavilə olmalı idi. Məhkəməyə təqdim etdikləri dırnaqarası öhdəlik müqaviləsi daha çox təslimçilik müqaviləsini xatırladır. Həmin müqaviləni ağlı başında olan kimsə imzalamazdı. Digər tərəfdən də deputat nə vaxtdan sahibkarlıq fəaliyyəti ilə məşğul olur? Faizə pul vermək lisenziyalı fəaliyyətdir. Məgər Rüfət Quliyevin lisenziyası var? Deputat Rüfət Quliyev bu fəaliyyətinə görə vergi ödəyib? Göründüyü kimi, Rüfət Quliyevin qanunsuzluqları saymaqla bitmir. Bu iddianı qaldırarkən deputat Rüfət Quliyev sələmçilik fəaliyyəti ilə məşğul olduğunu etiraf edib. Üst-üstə 40 min dollar verdiyini iddia edir və bu məbləği şişirdərək 328 min dollara qədər çatdırır. Bu, əmlakın ələ keçirilməsi üçün ortaya atılan düşünülmüş hiylədir".


Rüfət Quliyev

**Məsələ ilə bağlı deputat Rüfət Quliyevlə əlaqə saxlamağa cəhd etdik. Lakin deputatın telefonu qapadıldığından onunla danışa bilmədik. Onun vəkili Kamandar Nəsibov bildirdi ki, deputat xaricdədir, onun barəsində yazılanlar isə doğru deyil. Vəkil sələmə verilmiş pulun deputata deyil, onun oğluna məxsus olduğunu qeyd etdi. Məhkəməyə təqdim edilmiş iddiada iddiaçı, öhdəlik haqda müqaviləsindən tərəf kimi deputat Rüfət Quliyevin çıxış etməsini isə deputatın oğlunun xaricdə olması ilə izah etdi:** "Rüfət Quliyevin oğlu Toğrul Dubaydakı banklardan birində çalışıb, o dövrlərdə bir neçə adamlarla biznes fəaliyyətinə girib. Namiq Səfərov da belə şəxslərdən olub. Rüfət Quliyev oğlunun xahişi ilə o adama pul verib. Çünki Toğrul burada olmayıb. Orada söhbət 191 min dollardan gedir. Namiq Səfərov o pulu hissə-hissə alıb".

**Vəkil "deputat ölmüş şəxsin həyat yoldaşından nə qədər pul tələb edir" sualına belə cavab verib:** "Pulu verən Toğrul Quliyev olub. Pul Toğrul Quliyevin şəxsi puludur, o, hətta Namiq Səfərovla biznesə şərik girmək üçün çalışdığı bankdan bir neçə dəfə kredit də götürüb. Biz iddianı verəndən sonra bilmişik ki, Namiq Səfərov bizimlə bərabər bir neçə şəxsdən də pul alıb. Onun heç yerdə işləmədiyi bir vaxtda bir çox yerlərdə əmlakları var".

K.Nəsibov deyib ki, N.Səfərov dünyasını dəyişəndən sonra onun sağlığında verdiyi etibarnaməyə əsasən mülkiyyətində olan maşın digər şəxsini adına dövr edilib. Vəkil deyib ki, bu, cinayət əməlidir. K.Nəsibov deputat oğlunun verdiyi pullara görə N.Səfərovdan 1 manat da geri ala bilmədiyini diqqətə çatdırıb.

"Bu halda niyə Namiq Səfərova bir neçə il ərzində 191 min manat verib" sualına vəkil "ona etibar edib, inanıb" cavabını verib.

❑ **E.MƏMMƏDƏLİYEV**

# Akif Çovdarov icra başçısının 800 min manatını necə qaytaracaq - hüquqşünas rəyi



## **Müzəffər Baxış:** "O, sübut etsə ki, "bir həsirdi, bir Məmmədnəsir"..."

**Ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyi (MTN) Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin sabiq rəisi, general Akif Çovdarovun Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı Əhəd Abıyevə qarşı qanunsuz əməliyyatı haqda yazmışdıq. Aldığımız məlumatda qeyd olunurdu ki, A.Çovdarovun ziyan verdiyi məmurlardan biri də Əhəd Abıyev olub.**

Bu haqda ötən saylarımızın birində yazmışdıq. Qısaca xatırladaq ki, Daşkəsən rayonunun Qabaqtəpə kəndində körpü tikintisinin aparılması üçün tender elan olunub. A.Çovdarov rayondakı mənbələrindən tenderin qalibi olan iş adamının kimliyini, bankdan pulu nə vaxt çıxaracağını öyrənib. Şirkət rəhbəri və mühasibi Bakıya tikintinin aparılması üçün büdcədən ayrılan vəsaitin alınması məqsədilə gəliblər. Amma geri dönməyiblər. Sonradan məlum olub ki, iş adamını və mühasibi A.Çovdarovun qara maskalıları bankdan pulu çıxararkən qanunsuz şəkildə oğurlayaraq MTN-ə aparıblar.

Bundan xəbər tutan Ə.Abıyev məsələyə qarışıb. Sonra körpü tikintisi üçün ayrılan 800 min manatı tələb etməmək müqabilində Ə.Abıyev tender qalibi olan şirkətin rəhbərini, mühasibini azad etdirə bilib. Başıbəlalı körpü inşa edilib və ötən il dekabrın 24-də açılışı olub.

Eldar Mahmudov və onun dəstəsi "vurulandan" sonra Ə.Abıyev tender haqda məlumatların A.Çovdarova MTN-in yerli şöbəsinin rəisi tərəfindən ötürüldüyü qənaətini gizlətməyib. Deyilənə



görə, bunu "MTN işi" üzrə istintaq aparan qrupun üzvlərinə də deməkdən çəkinməyib.

Ə.Abıyevin ifadələri rəsmiləşdirilsə də, bu günə qədər dövlət büdcəsindən ayrılan 800 min manat geri qaytarılmayıb.

Dövlət büdcəsindən ayrılan 800 min manatın qanuni şəkildə geri qaytarılması mexanizmi varmı?

**"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri Müzəffər Baxış deyir ki, bu fakt üzrə ittiham verilsə, bu halda istintaq orqanı iş adamını zərərçəkən kimi tanımalıdır. Bu şəxs həm də mülki iddiaçı kimi tanınmalıdır:** "Fakt üzrə Akif Çovdarova ittiham veriləcəksə, həmin 800 min manatın Akif Çovdarovdan alınması və zərərçəkənə ödənməsi barədə mülki iddia cinayət işinin materiallarına əlavə edilməlidir.

Əgər mülki iddia ibtidai istintaq dövründə verilməsə, amma fakt üzrə Akif Çovdarova ittiham verilsə, zərərçəkənlər məhkəmə istintaqı başlanana qədər pul vəsaitinin Akif Çovdarovdan alınması və onlara verilməsi haqda mülki iddia qaldıra bilərlər. Mülki iddia qaldırılandan sonra bu şəxslər məhkəmə tərəfindən mülki iddiaçı kimi tanınacaqlar. Mülki iddiaçılara 800 min manat ziyan dəyməsi sübutlarla təsdiqini tapacaqsa, A.Çovdarov haqda ittiham hökmü çıxarılarkən mülki iddiaya da qiymət veriləcək. İddia təmin edilə, baxılmamış saxlanıla və ya rədd oluna bilər. Hökmdə bu məsələyə münasibət bildirilir. Əgər baxılmamış saxlanacaqsa, mülki iddiaçılara izah olunacaq ki, iş bitəndən sonra A.Çovdarova mülki iddia qaldıra bilərlər".

Mülki iddiaçıların iddiaları təmin ediləcəyi təqdirdə Akif Çovdarov 800 min manatı ödəməkdən yayına bilər?

**M.Baxış deyir ki, A.Çovdarov əməlinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunacaq:** "Pulu olmasa, 800 min manatı ödəməsi çətin olacaq. O, məhkum edildiyi cəzanı çəkib qurtarsa belə, həmin pulu ödəməlidir. 30 il müddətində ondan pul tələb oluna bilər. Bu müddətdə məhkəmə icraçıları ondan pulu tələb edəcəklər. Əgər desə ki, pulu yoxdur və onun "bir həsir, Məmmədnəsir" olduğu bilinəcəksə, məhkəmə icraçıları görəcəklər ki, məhkəmə qərarını icra etməkdən qərəzli şəkildə boyun qaçırmır, bu halda 800 min manatın ödənməsinin təmin olunması mümkün olmayacaq. Yəni Akif Çovdarov 800 min manatı geri qaytarmayacaq".

❑ **E.MƏMMƏDƏLİYEV**

Azərbaycan Respublikasının Prezidenti yanında
Kütləvi İnformasiya Vasitələrinin İnkişafına
Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan,
Dağlıq Qarabağ münaqişəsi haqqında
həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması,
Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



YENİ MÜSAVAT
N 173 (6494) 9 avqust 2016

**Sabah - avqustun 10-da Rusiya prezidenti Vladimir Putin erməni həmkarı Serj Sərkisyanı Moskvada qəbul edəcək. Bu görüşə Putinin Bakı sammiti və Türkiyə prezidenti Rəcəb Tayyib Ədroğanla Sank-Peterburq görüşündən dərhal sonra keçirilməsi səbəbindən ikiqat diqqət var.**





# Putin Moskvada Sərkisyanın qulağına Qarabağla bağlı nə pıçıldayacaq?

## Rusiya prezidentinin Bakıdan qayıtdıqdan sonra erməni həmkarına nə deyəcəyi maraq doğurur; siyasi analitik: "Moskva İrəvana təzyiq eləməsə, vəziyyət yenidən gərginləşəcək"

Siyasi müşahidəçilər Putin-Sərkisyan görüşündə əsas müzakirə obyektinin Ermənistandaxili durum və Qarabağ məsələsi olacağını ehtimal edirlər. Maraqlıdır ki, erməni mənbələri Serj Sərkisyana yaxın qaynaqlara istinadən xəbər verir ki, əslində avqustun 10-da Sərkisyanı Moskvaya Putin çağırmayıb, o özü Rusiya liderindən görüş xahişində bulunub. Mənbənin bildirdiyinə görə, əsas motiv də budur ki, rəsmi İrəvan öyrənmək istəyir ki, Rusiya, İran və Azərbaycanın birgə iqtisadi layihələrində Ermənistan hansısa rol oynayırmı, yoxsa o, növbəti dəfə kənarda saxlanılır? "Və təbii ki, başqa bir narahatlıq Dağlıq Qarabağ məsələsi ilə bağlıdır" - qaynaq qeyd edib.

*****

İstənilən halda Putinin Qarabağ mövzusunda Sərkisyana nə deyəcəyi maraq doğurur. Buradaca Rusiya liderinin Bakı səfəri öncəsi AzərTAc-a müsahibəsində Qarabağ mövzusunda verdiyi açıqlamalar düşür. Məsələn, Putun xüsusi vurğulayaraq demişdi ki, Rusiya Azərbaycana və Ermənistana hansısa hazır həll reseptləri qəbul etdirməyə əsla çalışmır. **"Tərəflər kənardan təzyiq olmadan özləri razılığa gəlməli, qarşılıqlı məqbul həll yollarını tapmalıdır. Bu, bizim qəti mövqeyimizdir"** - Kreml başçısı qeyd eləmişdi.

Onun sözlərinə görə, tənzimlənmənin son məqsədi elə bir razılaşma olmalıdır ki, tərəflərdən heç biri nə qalib, nə də məğlub sayılsın, güzəştlər qarşılıqlı, tərəflərin hər birinin qazancı həm Azərbaycanda, həm Ermənistanda ictimai rəy üçün aydın olsun. **"Öz növbəsində Rusiya problemin cəlb olunmuş bütün tərəfləri razı salacaq həll variantını dəstəkləməyə, digər vasitəçilərlə birlikdə tənzimləmənin qarantı kimi çıxış etməyə hazırdır"**, - deyə Putin bildirmişdi.

Bu açıqlamalar belə qənaət yaranır ki, Rusiya Qarabağ məsələsində öz satellitinə ciddi təzyiq eləməyə, hər halda hazırlaşmır. Eyni zamanda belə təəssürat formalaşır ki, Moskva konfliktin indiki durumda qalmasından da narahatdır və müharibəni önləyəcək hansısa irəliləyişin olmasını, hər halda, istərdi.

*****

**"Putin Sərkisyanı Moskvaya çağırmaqla Rusiya ilə Ermənistan rejimi arasındakı bəzi pərdəarxası suallara aydınlıq gətirmək istəyir". Bunu politoloq Fikrət Sadıqov Serj Sərkisyanın Moskva səfəri ilə bağlı bəzi məqamlara aydınlıq gətirərkən bildirib (axar.az).**

Politoloqun qənatincə, Sərkisyanın üzdə olan uğursuz bəyanatları zəif bir liderin artıq Ermənistanda mürəkkəbləşən vəziyyəti hələ ala bilməməsindən xəbər verir: "Azərbaycan, Rusiya və İran prezidentlərinin timsalında kifayət qədər mühüm məsələlərin müzakirə olunacağı Bakı görüşü əslində çox diqqət çəkir. Bu görüş regionda öz sözünü deyəcək və bir çox müsbət proseslərin başlanğıcını qoyacaq. Görüşün fokusunda mütləq Dağlıq Qarabağ məsələsi var və problemin həllinə dair müəyyən təkliflər irəli sürülə bilər. Hətta İlham Əliyevlə Vladimir Putin arasında müəyyən razılıqların əldə olunması istisna deyil. Bu razılıqlar fonunda Sərkisyanın Moskvaya çağırıldığını ehtimal etməyə də əsaslar var".

**Rusiya və Ermənistanın kompromislər axtarışında olduğuna işarə edən politoloq bu yerdə Moskvanın İrəvana təzyiqini mümkün sayıb:** "Azərbaycanın mövqeyi prinsipialdır, Dağlıq Qarabağın həlli birmənalı şəkildə ərazi bütövlüyümüz çərçivəsində həllini tapacaq. Putin Bakının önəmini bilir, məhz Azərbaycanın risklərə qarşı birgə mübarizədə rolu və irimiqyaslı layihələrdə iştirakı Moskvanın diqqətindədir. Bu, özlüyündə Dağlıq Qarabağın həllinə də təsir göstərir. Düşünürəm ki, Sərkisyan Moskvaya elə ona görə çağırılır ki, bu məsələlər yenidən gündəmə çıxsın və ola bilsin, İrəvana müəyyən təzyiq də edilsin. Əks təqdirdə, vəziyyət yenidən gərginləşəcək".

*****

Ən təhlükəlisi də elə odur ki, aprel döyüşlərindən sonra sülh prosesinin intensivləşəcəyinə, konfliktin həllində, nəhayət, real irəliləyişin olacağına olan ümidlər yavaş-yavaş öləziməkdə, gözləntilər fiasko olmaqdadır. Əfsus ki, 4 günlük müharibənin üstündən 4 aydan çox keçməsinə baxmayaraq, köhnə "yük" hələ də öz yerindədir.

Bu üzdən bir çox siyasi ekspertlər ATƏT-in Minsk Qrupunun həmsədrləri - ABŞ, Rusiya və Fransanın münaqişənin həllini sürətləndirməli olduğu qənaətindədirlər. Əks halda aprel olaylarının gec-tez, həm də qat-qat böyük miqyasda təkrarlanması qaçılmaz olacaq.

Xatırladaq ki, apreldəki hərbi əməliyyatlardan keçən 4 ayda Qarabağa dair prezidentlər səviyyəsində yalnız iki dəfə - Vyanada və Sankt-Peterburqda görüşlər keçirilib. Lakin bu görüşlər sırf etimad görüşləri kimi tarixə düşüb və problemin həllində gözlənilən "Yol xəritəsi"nin hazırlanması üçün yetərli olmayıb.

Ümid isə indi də prezidentlərin növbəti görüşünə qalıb. Məlumatlara görə, bu görüş Parisdə keçirilə bilər. Ondan sonra daha bir yüksək səviyyəli təmasın Minsk Qrupunun üçüncü həmsədr ölkəsi ABŞ-da təşkil ediləcəyi deyilir. Nikbin müşahidəçilərə görə, məhz qarşıdakı görüşlər çərçivəsində nizamlama prosesini nəhayət, dalandan çıxarmaq, müharibə ehtimalını minimuma endirmək mümkün olacaq.

Skeptiklər isə əksinə, o qənaətdədirlər ki, konfliktin həlli üçün yetərli və məqbul atmosfer mövcud deyil, böyük güclərin başı Yaxın Şərqə, Suriyaya qarışıb və Qarabağ məsələsi, ümumiyyətlə, onlar üçün prioritet deyil. Hansı mövqeyinin aparıcı olduğu yəqin ki, tezliklə bilinəcək. Bir şey dəqiqdir ki, münaqişənin həllinin uzanması avtomatik şəkildə hərbi qarşıdurma ehtimalını da gücləndirəcək.

# "Tank biatlonu" müsabiqəsində Azərbaycan tankçıları 5-ci yerdədir

**"Beynəlxalq Ordu Oyunları - 2016" yarışları çərçivəsində keçirilən "Tank biatlonu" müsabiqəsində iştirak edən Azərbaycan tankçıları fərdi yarışlar zamanı müsabiqənin növbəti mərhələsində bütün hədəfləri məhv edərək Ermənistan komandasını qabaqlayıb və yarımfinala vəsiqə qazanıblar.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən verilən məlumata görə, 15 mərhələdən ibarət olan və 18 ölkədən 54 tank heyətinin iştirak etdiyi "Tank biatlonu" müsabiqəsinin yarımfinalında Azərbaycan da daxil olmaqla, 12 ölkənin komandası iştirak edəcək.

Yarımfinal yarışları zamanı 4 komandadan ibarət qruplarda tankçılarımız avqustun 11-də Rusiya, Serbiya və Hindistan komandaları ilə gücünü sınayacaq. Avqustun 13-də yekun vurulacaq yarışların finalına 4 komanda çıxacaq.

Ən yaxşı heyət sıralamasında reytinqinə görə Azərbaycan tankçıları 5-ci yerdədir.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Siyasət şöbəsi



# Ölkəyə gətirilən və ölkədən çıxan valyuta nisbəti nə deyir?

**Ekspert:** "Gətirilən xarici valyutanın həcmi çıxarılandan hələ ki xeyli aşağıdır..."

**Bu ilin yay mövsümündə Azərbaycana gələn turistlərin sayında xeyli artım müşahidə olunur. Bu artımı həm şəhərdə gəzən turistlərin sayı, həm də açıqlanan rəsmi rəqəmlər vasitəsi ilə görmək mümkündür. Təbii olaraq, gələn turistlər özləri ilə xarici valyuta gətirirlər ki, bu da ölkənin valyuta bazarına da müsbət təsirini göstərməkdədir.**

Xüsusilə də pul xərcləməyə meylli olan ərəblərin sayəsində söylədiyimiz faktor daha qabarıqdır. Lakin buna baxmayaraq, Bakıda həm də dolların manata nisbətdə bahalaşması davam edir. Bəzi ekspertlər hesab edirlər ki, Azərbaycandan da yay aylarında xarici ölkələrə istirahət etmək məqsədi ilə gedənlərin sayı xeyli artır. Nəticə olaraq onlar turistlərdən fərqli olaraq, xarici valyutanı gətirmir, ölkədən çıxarırlar. Bu da dolların bahalaşmasına səbəb olur.

Bəs ölkəyə gətirilən və aparılan xarici valyutanın nisbəti nə qədərdir? Məsələ ilə bağlı "Yeni Müsavat" **iqtisadi ekspert Natiq Cəfərli** danışıb. Ekspert bildirib ki, ölkəyə gələn turistlərin sayında artım müşahidə olunsa da, gətirilən xarici valyutanın həcmi çıxarılandan xeyli aşağıdır: "Əslində hər hansı bir ölkənin milli valyutasının sırf turizmə görə möhkəmlənməsini söyləmək doğru olmaz. Misal üçün, son ilə qədər Türkiyə dünyada ən çox turist qəbul edən 6-cı ölkə idi. Lakin buna baxmayaraq, türk lirəsi son beş ildə 2 dəfəyə yaxın dəyər itirdi. Buradan da görünür ki, milli valyutanın məzənnəsi sırf turistlə bağlı olsaydı, o zaman türk lirəsi getdikcə daha da möhkəmlənməli idi. Eləcə də Gürcüstana da bunu şamil etmək olar. Orada da kifayət qədər turist sayı artıb. Turist sayında hər il təqribən 15-20 faizlik ciddi artım olur. Lakin orada da milli valyuta olan lari son 1 ildə demək olar ki, 60 faiz dəyər itirib. Təbii ki, turistlərin valyutaya müəyyən təsirləri də yox deyil. Bir məqam da var ki, Azərbaycandan da kifayət qədər böyük sayda insanlar xaricə üz tuturlar. Məsələn, Gürcüstanın son illər ən çox turist qəbul etdiyi ölkə Azərbaycandır. Gürcüstan təqribən il ərzində 600-700 minə yaxın azərbaycanlını qəbul edir. Bu saya turistik və ya qeyri-turistik səfərlər də daxildir. Hər halda, gedənlərin hər biri ora valyuta aparırlar. Eləcə də vətəndaşlarımız digər ölkələrə də bu kimi səfərlər edirlər. Nəticə olaraq söyləyə bilərik ki, ölkəyə gələn turist sayı ilə çıxan azərbaycanlıların sayında dəfələrlə fərq var. Gələnlərin sayı xeyli azdır. Ona görə də sırf turizmə köklənib Azərbaycan manatında hər hansı bir dəyişiklikləri gözləmək doğru deyil".

**Ekspertə görə, gələn valyuta ilə çıxarılan valyutanın konkret faiz fərqini söyləmək çətindir:** "Çünki bununla bağlı ciddi rəqəm ortada yoxdur. Sadəcə olaraq, Mərkəzi Bankın açıqlamalarında ümumi turistik sektordan büdcəyə daxilolmaların həcmi açıqlanır. Turizmin yaratdığı ümumi, daxili məhsul hesablanır. Əgər gələn turistlərin sayı ilə çıxanların sayını müqayisə edərsək, bunu açıq şəkildə görmək olar ki, ölkədən çıxan valyutanın da həcmi gətiriləndən bir o qədər dəfə yuxarıdır. Sadəcə olaraq, say etibarı ilə birdən-birə ölkədə ərəblərin sayının dəfələrlə artması bizim gözümüzə böyük rəqəm kimi görünür. Halbuki elə həmin ərəb ölkələrindən Gürcüstana Azərbaycana gələndən 4 dəfə çox ərəb gedib. Doğrudur, ötən illə müqayisədə ölkəmizə gələn ərəblərin sayında təxminən 30 dəfə artım var. Ötən il say az idi. Say kifayət qədər artsa da, o həddə çatmayıb ki, bir çox sahələrin inkişafına ciddi təkan versin. Buna baxmayaraq, turistlərin həm də ölkədə kiçik və orta sahibkarlara, regionlarda istehsal olunan əl işlərinin satılmasına müəyyən yardımı olub. Lakin qeyd etdiyim kimi, həcm hələ o səviyyədə deyil ki, bunu böyük sayda insanların gəlirlərinin artmasında müşahidə edək".

❑ Əli RAİS

# ABŞ atom silahı ilə ram etmək siyasətini nə ilə əvəzlədi?

## Yaponiyaya nüvə bombası atılması ilk və son oldu, ona görə ki...

**ABŞ bombardmançılarının Yaponiyanın Xirosimo və Naqasaki şəhərlərinə atom bombası atmasından 71 il ötür. 1945-ci ilin 6 avqustunda yapon şəhərini-Xirosimonu hədəf seçmiş Amerika hərbçiləri on minlərlə insanın həyatına son qoydular.**

2013-cü ilin 31 avqustuna qədər aparılmış dəqiqləşdirmələrlə məlum olub ki, Xirosimo və Naqasaki şəhərlərinə atılmış bombalar ümumilikdə 450 min insanın həyatına son qoyub. 286 min 818 nəfər Xirosimoda, 162 min 83 nəfər isə Naqasakidə həlak olub. Yaponiyaya atom bombası atılmasını İkinci Dünya müharibəsinin son akkordu-zərbəsi də adlandırırlar. İkinci Dünya müharibəsində ABŞ-ın əsas rəqibi Yaponiya idi. Amerikanlar iddia edirlər ki, ABŞ-ın Yaponiyanın Xirosimo və Naqasaki şəhərlərinə atom bombası atmasının əsas səbəbkarlarından biri də təyyarəçi Yukio Araki olub. Öz təyyarəsini ABŞ-ın hərbi təyyarələr daşıyan gəmisinə çırpıb partladan bu kamikadzenin amerikanların nüvə silahına əl atmasına səbəb olduğu iddia edilir.

Məsələ burasındadır ki, atom bombasının fəsadları sonrakı günlərdə, aylarda və illərdə 150 minə yaxın dinc sakinin məhvinə, şikəst, əlil olmasına səbəb oldu.

Üç gün sonra-avqustun 9-da ABŞ bombardmançıları ikinci bombanı Naqasaki şəhərinə atıblar. Xirosimoya atılandan güclü olan bu bomba ilk saniyə və dəqiqələrdə 90 min insanın həyatına son qoyub. Bundan 6 gün sonra Yaponiya özünün təslim olduğunu bəyan edib. Faşist koalisiyasının sonuncu ölkəsinin qeyd-şərtsiz təslim olması barədə akt 1945-ci ilin 2 sentyabrında ABŞ-ın Missuri xətt gəmisində imzalanıb. Bununla da İkinci Dünya müharibəsi başa çatıb.



Lakin Yaponiya xalqının və dövlətinin əzabları bununla yekunlaşmadı. Sonrakı illərdə də Xirosimo və Naqasaki faciələri ilə əlaqədar on minlərlə insan dünyasını dəyişdi, radiasiyanın qurbanı oldu. Bu ölkədə dünyaya gələn uşaqların bir qismi ya şikəst olurdu, ya da ölü doğulurdu.

ABŞ-ın siyasi və hərbi rəhbərliyi bəşər tarixində ən güclü silahı on minlərlə mülki şəxsin, dinc sakinin yaşadığı şəhərə atmasını indiyədək müxtəlif bəhanələrlə əsaslandırmağa çalışıb. Amerikanlar iddia edirlər ki, guya Xirosimo və Naqasaki faciəsi hərbi zərurətdən irəli gəlib. Əslində isə bu yalandır. Tarixçilər və siyasətçilər ABŞ-ın bununla dünya hegemonluğunu ölkələrə qəbul etdirmək niyyəti güddüyünü dəfələrlə bəyan ediblər.

İllər keçdikdən sonra Ağ Ev rəsmiləri də bu partlayışlarla SSRİ-dən güclü olduqlarını Stalinə sübut etməyə çalışdıqlarını dilə gətiriblər. ABŞ-ın əldə etdiyi ən təhlükəli silahla dünyada hegemonluq iddiasının qarşısına isə cəmi 4 il sonra -1949-cu ildə SSRİ özünün yeni atom silahını yaratmaqla çıxdı. Çox keçmədən ABŞ-ın dövlət siyasətində dəyişiklik edildi və bu dəyişiklik dünyanı atom bombası istifadə etmədən ələ keçirməyi, nüfuz dairəsini genişləndirməyi nəzərdə tuturdu. Dövlətlərin daxili siyasətinə təsir etmək. Müxtəlif adlar altında mərkəzlər, institutlar yaradıb hədəf seçilən ölkələrdə həmin qurumların kök atması, ətrafına yerli fəalları, siyasiləri cəlb etmək və zamanı gələndə iqtidara sahiblənmək.

**On illərdir ABŞ-ın atom bombasını bu taktika əvəz edir. Bu siyasət bir sıra ölkələri normal dəyişiklik, inkişaf yoluna çıxarıbsa da bir çoxlarını məhrumiyyətlərlə üz-üzə qoyub, zərbəsi atom bombasının təsirindən heç də az olmayıb.**

❑ E.SEYİDAĞA

# Gülənin yeni planları ilə bağlı sensasion açıqlamalar

## **Ankara bələdiyyə başqanı:** "Oktyabrda Türkiyədə növbəti qarşıdurmaya cəhd edilə bilər"

**Avqustun 7-də Türkiyədə keçirilən "Demokratiya və Şəhidlər" mitinqində 5 milyona yaxın insan iştirak etdi. Dünyaya birlik və bərabərlik mesajı verən mitinqdə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan, baş nazir Binali Yıldırım, Türkiyənin baş qərargah rəisi, TBMM sədri ilə yanaşı müxalifət liderləri də iştirak etdi. Mitinqdə CHP lideri Kamal Kılıçdaroğlu və MHP başqanı Devlet Baxçalı da çıxış etdilər.**



Saatlarla davam edən mitinqin gedişatında Ankara bələdiyyə başqanı Melih Gökçekin mətbuata verdiyi açıqlama böyük marağa səbəb olub. M.Gökçek Türkiyədə hərbi çevriliş cəhdi hazırlayan Fətullah Gülən və onu dəstəkləyənlər haqda sensasion sayıla biləcək açıqlamalar verib. O, FETO terror təşkilatı adlandırılan bu hərəkatın yeni planlarının olduğunu açıqlayıb.

**Musavat.com xəbər verir ki, M.Gökçek əvvəlcə Fətullah Gülənin böyük ruh düşkünlüyü yaşadığını və çıxılmaz vəziyyətdə olduğunu deyib:** ""FETO nə edəcəyini bilmir. Öz ətrafında olanları bir arada necə saxlaya biləcəyini düşünür. Bir tərəfdən də Amerikaya mesajlar verir. Ancaq verdiyi mesajlardan onun necə təlaşlı, həyəcanlı olduğu hiss edilir".

**Türkiyədə növbəti qarşıdurmaların başlaması üçün planlar hazırlandığını deyən M.Gökçek özü də bu işlərdən xəbər tutacağı halda dövlətini məlumatlandıracağını deyərək xalqı da ayıq-sayıq olmağa çağırıb:** "Allahın köməkliyi ilə onlar Türkiyədə heç bir iş görə bilməyəcəklər. Ancaq belə xəbərlərlə daim bizi narahat etmək istəyəcəklər. Mən kiçik bir ehtimal belə görsəm, bu məlumatı xalqımla bölüşərəm. Onların niyyətini bilsəm, dövlətimi məlumatlandıraram. Onların oyununu pozaram. Bu günə qədər də belə etmişəm".

**M.Gökçek bildirib ki, bu ilin oktyabr ayında Türkiyədə növbəti dəfə qarşıdurma yaradılmasına cəhd edilə bilər:** "İlk aldığımız məlumat budur ki, onlar oktyabr ayında növbəti belə bir addım atmağa çalışacaqlar. Ancaq o vaxta qədər də müxtəlif məlumatlar yayaraq bizi çaşdırmaq istəyəcəklər. Lakin heç vaxt belə bir olayı təkrarlaya bilməyəcəklər. Bunlar İŞİD və PKK-nı arxalarına alaraq növbəti dəfə belə bir cəhd etməyə çalışacaqlar. Bunlar fərqli bir metod da həyata keçirə bilərlər. Sui-qəsdlər də edə bilərlər. Bizi öldürə bilərlərmi? Əlbəttə, Allah istərsə, öldürərlər. Ancaq bütün kainat bir yerə gələrsə, mənim, cənab prezidentimin tükünə zərər verə bilməzlər. Yetər ki, bunu Allah istəməsin. Biz buna iman etmişik. Allah istəməsə, bizə heç bir şey olmaz".

**Onun sözlərinə görə, Türkiyədə qarşıdurma yaratmaq istəyənlərin növbəti addımı həbsxanalardan başlaya bilər. M.Gökçek deyib ki, Fətullah Gülənin həbsxanalarda xeyli sayda qardian olaraq çalışan adamları var. Xalqı növbəti qiyam cəhdlərinə qarşı hazırlıqlı olmağa çağıran M.Gökçek onlara nə etməli olduqlarını belə izah edib:** "Vətəndaşlara bəzi məsələləri açıqlamaq və hazır olmalarını məsləhət görürəm. Bu işlər olacaq deyə demirəm. Əgər olarsa, hazırlıqlı olun, deyə söyləyirəm. Artıq bundan sonra kimsə kiçik bir olaydan xəbərdar olarsa, qeydiyyat dəftərini hazır etsin. Ən azı 10 nəfərə də xəbər versin. Həmin 10 nəfər də digər 10 nəfərə xəbər versin. Əvvəlcədən müəyyən edilmiş yerlərdə insanlar toplaşsın. Toplaşmaq lazım olan əsas yerlər şəhərlərin mərkəzi meydanları və hərbi hissələrin qarşısıdır. Belə bir hadisə olduğu halda sivil xalq heç düşünmədən hadisə yerinə getməlidir. Allah qorusun, bunlar yeni bir oyun qurar, bütün şəbəkəni, bir-birimizlə əlaqə qurmaq imkanlarını kəsərlər. Ona görə də xalq indidən bu vəziyyətə hazır olmalıdır. Harada, necə və hansı mesajlarla bir-birilərinə xəbər edəcəklərini, toplaşacaqları yerləri öz aralarında razılaşsınlar. İşi heç də şansa buraxmaq olmaz".

Xatırladaq ki, M.Gökçek əvvəllər Fətullah Gülənə yaxınlığı ilə bilinən hökumət nümayəndələrindən olub. Son günlər isə sosial şəbəkələrdə M.Gökçekin bir neçə il əvvəl öz twitter hesabından Fətullah Gülənə "FETO" deyə səslənənlərə etiraz mesajı paylaşılır. Həmin mesajda M.Gökçek bunun Fətullah Gülənə hörmətsizlik olduğunu qeyd edirdi.

M.Gökçekin oğlu Gülən məktəbinin məzunudur. Lakin M.Gökçek bu məsələ ilə bağlı danışarkən deyib ki, oğlu kimi bir çoxları bu "camaat"ın içərisində olsa da doğrunu görərək hökumətinin yanında olmağı bacarıblar.

❑ Musavat.com

YENİ MÜSAVAT
N 173 (6494) 9 avqust 2016

**2016-cı ilin aprel döyüşlərində qəhrəmanlıqları ilə önə çıxan, Vətən uğrunda tərəddüd etmədən canını sipər edən əsgər və zabitlərimizdən biri də kəşfiyyatçı polkovnik-leytenant Raquf Orucov idi. Vətənə sevgisi və qəhrəmanlığı ilə çoxlarının yaddaşında unudulmaz komandir olaraq qalan R.Orucovun adı bir neçə gündür xoş olmayan məsələlərlə gündəmə gəlib.**

# Aprel şəhidinin xatirəsinə laqeydlik atanı insult etdi

## Şəhid Raquf Orucovun ailəsi narazılıq edir, rəsmi qurumlar isə buna əsas olmadığını deyir...



Şəhid kəşfiyyatçının xanımı Sevinc Əlizadə mətbuata müraciət edərək onlara göstərilən diqqətsizlikdən gileylənib. Ailəni əsas narazı salan məqamlardan biri polkovnikin şəhid olmasından sonra ailəyə verilməli olan müavinətin hələ də ayrılmamasıdır. 4 ay keçməsinə baxmayaraq müavinəti ala bilməyən şəhid xanımı aidiyyəti qurumlarda get-gələ salınmasından və R.Orucova "Azərbaycanın Milli Qəhrəmanı" adı verilməməsindən narazılığını da dilə gətirib.

Qısa zaman ərzində mətbuatda və sosial şəbəkələrdə şəhid ailəsinə qarşı göstərilən bu münasibət ciddi narazılığa səbəb oldu. Elə bunun nəticəsi olaraq da aidiyyəti qurumlar dərhal məsələyə münasibət bildirdilər.

Əvvəlcə Müdafiə Nazirliyi səsləndirilən ittihamlara cavab verib.

Nazirlikdən bildirilib ki, R.Orucova "Azərbaycanın Milli Qəhrəmanı" fəxri adının verilməməsi ilə bağlı şəhidin ailəsi məlumatlandırılıb ki, bu ad Silahlı Qüvvələrdə uzun müddət xidmətə görə deyil, hər hansı döyüş əməliyyatında göstərilən qəhrəmanlığa, şəxsi şücaət və rəşadətə görə müəyyən edilir. Şəhid ailəsinin pensiya təminatı ilə bağlı iddiasına isə nazirlikdən cavab olaraq deyilirdi: **"Tələb olunan sənədlərin işlənib-hazırlanması böyük həcmli bir proses olmasına baxmayaraq, Müdafiə Nazirliyinin müvafiq qurumları bu məsələnin sürətləndirilməsi məqsədilə üzərinə düşən vəzifələri vaxtında yerinə yetirib, sənədlər hazırlanıb və aidiyyəti üzrə göndərilib".**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi də şəhid ailəsinin narazılığına münasibət bildirib. Nazirlikdən verilən məlumatda qeyd edilir ki, R.Orucovun ailəsinə pensiya və təqaüdün, sosial müavinətin hələ də təyin olunmaması haqda deyilənlər həqiqət deyil. Nazirliyin açıqlamasında deyilir ki, Sevinc Əlizadə şəhid ailəsi kimi onlara qeyd olunan sosial ödənişlərin təyin olunması ilə bağlı avqustun 3-də ƏƏSMN-ə müraciət edib. Müdafiə Nazirliyi ilə əməkdaşlıq şəraitində qısa müddətdə həmin sənədlərin tam tərkibdə əldə olunması təmin edilib. Beləliklə də R. Orucovun ailəsinə ümumilikdə 1039 manat məbləğində aylıq sosial ödəniş təyin edilib və bu ay ərzində son 4 ayın ümumi məbləği kart hesabına köçürüləcək.

Şəhid ailəsinin bu problemi ictimailəşəndən bir gün sonra öz həllini tapıb. Lakin bu məsələdə fərqli mövqe ortaya qoyanlar da var. Əsasən də sosial şəbəkələrdə bir qrup şəxs şəhid ailəsinin "pul davası" etməsinə qarşı olduqlarını bəyan ediblər. Şəhidlərin Vətən, torpaq uğrunda canlarından keçdiyini deyənlər onların maddiyyət üçün bu yolu seçmədiklərini qeyd edirlər.

**Ən çox etirazlara səbəb olan fikirlər isə jurnalist Günay Arda tərəfindən səsləndirilib.** "Hər nə olursa-olsun, şəhid ailəsi pul davası edə bilməz. Ölən borcunu yerinə yetirib. Vətən heç kimə borclu deyil. Haqqım var deyirəm" - deyə fikir yazan G.Ardanın bu sözləri böyük narazılıq yaradıb. Əksəriyyət bu fikrə cavab olaraq deyir ki, Vətən heç kimə borclu deyil, ancaq Vətən uğrunda şəhid olanların ailəsinə sahib çıxmaq dövlətin borcudur. Jurnalist sonuncu "Haqqım var deyirəm" cümləsini isə ona görə qeyd edib ki, o, özü şəhid qızıdır...

**Bu arada Raquf Orucovun atası İbrahim Orucovun insult keçirdiyi məlum olub. Qaynarinfo.az-ın məlumatına görə, bu barədə şəhidin qardaşı Orucov Zabil məlumat verib. Onun sözlərinə görə, atası dəfələrlə oğlunun adının ona layiq formada əbədiləşdirilməsi üçün aidiyyəti orqanlara müraciət edib, ancaq onu qəbul edən olmayıb. Nəticədə şəhidin atası bu laqeydsizlikdən narahat olaraq, insult keçirib:** "Artıq 20 günə yaxındır ki, insult keçirib, vəziyyəti ağırdır. Qapılarda gəzməkdən kişi ölümcül hala düşdü. Sumqayıt şəhərində 1 saylı yataqxanada yaşayırlar".

❑ **Musavat.com**

# Məşədi Natiqin ev dustaqlığı daha 3 ay uzadıldı

**Səbayel Rayon Məhkəməsində Nardaran sakini Məşədi Natiq Kərimovun barəsində olan cinayət işi üzrə istintaqın müddətinin uzadılması məsələsinə baxılıb. Vəkil Eyyub Ələkbərovun APA-ya verdiyi xəbərə görə, məhkəmə istintaqın müddətinin 3 ay uzadılması barədə istintaq orqanının müraciətini nəzərə alıb və bununla bağlı qərar qəbul edib.**



Məşədi Natiq Kərimov

Qeyd edək ki, N.Kərimov Dövlət Təhlükəsizliyi Xidmətinin İstintaq Baş İdarəsi tərəfindən aparılan cinayət işi üzrə şübhəli şəxs qismində tutularaq 7 yanvar 2016-cı il tarixdə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə təqsirləndirilən şəxs qismində cəlb edilib, məhkəmənin qərarı ilə barəsində həbs-qətimkan tədbiri seçilib. Sonradan həbs-qətimkan tədbiri ev dustaqlığı ilə əvəz edilib.

# Əhalinin manat əmanətləri artıb?

## Əmanətlərin Sığortalanması Fondu "hə" deyir, ekspertlər isə əksini bildirirlər



**İyun ayında banklarda əhalinin əmanətləri 195 milyon manat artaraq 7 milyard 761 milyon manat təşkil edib. Əmanətlərin Sığortalanması Fondundan verilən məlumata görə, bu, ilin əvvəlindən əmanətlərin ilk artımıdır. Beş ayda əmanətlər 20,14 faiz və ya 1 milyard 908 milyon manat azalıb.**

Əmanət artımı hökumətin ləğv edilən "Zaminbank", "Parabank", "Dekabank" və "Kredobank"ın əmanətçilərinə kompensasiya verilməsi üzrə addımları ilə eyni vaxta düşüb. Bu, dövlətin öhdəliyini ödəyəcəyinə etimadın artmasından xəbər verir. 2015-ci ildə əhalinin əmanətləri 4 milyard 422,4 milyon manatdan 1 milyard 420,2 milyon manata qədər azalıb. Əmanətlər əsasən valyutaya konvertasiya edilib. 2015-ci ildə əhalinin valyuta əmanətləri 3 dəfə artaraq 8 milyard 053,7 milyon manat təşkil edib. Hazırda valyuta əmanətləri bütün əmanətlərin 85 faizidir.

**Ekspert Əkrəm Həsənov məsələ ilə bağlı bildirib ki, Əmanətlərin Sığortalanması Fondu yalan deyir, iyunda əmanətlərin həcmi artmayıb, əksinə, yenə azalıb.** "Fond deyir ki, guya iyunda banklarda əhalinin əmanətləri 195 milyon manat artaraq 7,761 milyard manat təşkil edib. Həqiqətən də iyunun 1-nə 7,5659 milyard manat əmanət var idi. Fərq doğrudan da 196 milyon təşkil edir. Amma bu fərq əmanət artımının deyil, devalvasiyanın nəticəsidir. Belə ki, mayın 31-də 1 dollar 1,4906 manata, iyulun 1-də isə 1,5425 manata bərabər idi. Yəni iyunda devalvasiya 0,0519 manat və ya təxmini 3,5 faiz təşkil edib", - deyə ekspert bildirib.

**Devalvasiyanın əmanətlərin manat ekvivalentinə necə təsir etməsindən danışan ekspertin sözlərinə görə, fond özü də etiraf edir ki, hazırda valyuta əmanətləri bütün əmanətlərin 85 faizidir:** "Yeni əmanətlərin 6,59685 milyard manatı əslində dollarda və ya avrodadır, yalnız 1,16415 milyard manatı bilavasitə milli valyutadadır. Bu isə o deməkdir ki, xarici valyutada olan əmanətlər mayın 31-də 4,42563 milyard dollar təşkil edirdi. İyulun 1-də isə devalvasiya nəticəsində həmin dollar məbləği artıq 6,82654 milyard manata bərabər idi. Yəni 4,42563 milyard dollar mayın 31-də 6,59685 milyard manat, iyulun 1-də isə 6,82654 milyard manat ekvivalentinə bərabər olub. Fərq 230 milyon manata yaxındır. Yəni devalvasiyaya uyğun təxmini 3,5 faizdir. Fond isə deyir ki, guya iyunda əmanətlər 195 milyon manat artıb. Əslində isə həmin 195 milyon 230 milyon manatın tərkibindədir, yəni sadəcə, devalvasiyanın nəticəsidir. Bəs qalan 35 milyon manat hanı? Həmin məbləğdə əmanətlər iyunda banklardan çıxarılıb. Beləliklə, iyunda əmanətlər artmayıb, əksinə, 35 milyon manat azalıb".

**Ə.Həsənovun sözlərinə görə, fondun yalanı yalnız bundan ibarət deyil:** "Fond deyir ki, yalançı "əmanət artımı" hökumətin ləğv edilən dörd bankının əmanətçilərinə kompensasiya verilməsi üzrə addımları ilə eyni vaxta düşüb və guya bu, dövlətin öhdəliyini ödəyəcəyinə etimadın artmasından xəbər verir. Halbuki sözügedən 4 bank iyulun 21-də bağlanıb, əmanətlərin kompensasiyası isə avqustun 1-də başlanıb. İyulda və avqustda olan bu proseslərin iyuna təsiri necə ola bilərdi axı? Bu, heç yalan da deyil, cəfəngiyyatdır. Fondun əmanətlərin çıxarılması prosesinin və beləliklə də öz gəlirlərinin azalmasının qarşısını almaq istəyi başadüşüləndir. Amma bunu yalan məlumatlar və cəfəng mülahizələrlə etmək olmaz. Onsuz da iyulda 4 bankın bağlanması bank sisteminin yaxında özünə gələcəyinə ümid edənləri sarsıtdı. Fondun bu yalanları isə əmanət bazarını tam öldürə bilər. Çünki ifşanın nəticəsi daha ağır olur, bank sisteminə etimad tam aradan qalxır. Fond belə addım atırsa, deməli, vəziyyət bildiyimizdən də ağırdır. Belə şəraitdə vətəndaşlara heç tövsiyə də lazım deyil. Onlar banklara etimad etməyəcək, əmanət qoymayacaq, olanı da geri çəkəcək. Necə ki, bu ilin beş ayında əmanətlər 20,14 faiz və ya 1,908 milyard manat azalmışdı və iyunda da azalıb. Bank sistemimiz olduqca ağır vəziyyətdədir. Qanunsuzluq, korrupsiya, səriştəsizlik, qeyri-şəffaflıq və digər mənfi hallar bu sistemi bürüyüb, bank sahibləri və idarəçiləri bankları talayır. Bank nəzarəti və pul siyasəti isə nəinki bərbad, ümumiyyətlə, iflic vəziyyətdədir. İlin əvvəlindən 10 bank bağlanıb və orada əhalinin milyonlarla vəsaiti batıb. Sığortalanan əmanətlər də çətinliklə və pozuntularla qaytarılır. Başda guya "sağlamlaşdırılan" "Bank Standard" olmaqla, bəzi banklar ümumiyyətlə əmanətləri qaytarmır".

❑ **RÖYA**

YENİ MÜSAVAT
N 173 (6494) 9 avqust 2016

# ANAMA: Ağdam rayonunda Qrad qalıqları aşkar edilib

**Ağcabədi, Ağdam və Tərtər rayonlarında partlamış hərbi sursatın qalıqları aşkar edilərək götürülüb. Azərbaycan Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyindən (ANAMA) verilən məlumata görə, Ağcabədi rayonunun Yuxarı Qiyaməddinli kəndində 1 əkin sahəsində 1 partlayış yerinə baxış keçirilib, partlamış top mərmisinin qalıqları aşkar edilərək götürülüb, nəticə olaraq 3 min kv.m ərazi yoxlanılıb.**



Ağdam rayonunun Əfətli kəndində 1 əkin sahəsində 2 partlayış yerinə baxış keçirilib, partlamış top mərmisi və 9M22U raketi - Qrad qalıqları aşkar edilərək götürülüb, 3 min kv.m ərazi yoxlanılıb.

Tərtər rayonunun Şıxarx kəndində 1 otlaq sahəsində 3 partlayış yerinə baxış keçirilib, partlamış hərbi sursatın qalıqları aşkar edilərək götürülüb, 8 min kv.m ərazi yoxlanılıb.

ANAMA-da yaradılan xüsusi təyinatlı mobil çevik qrupları minaaxtaran itlərin dəstəyi ilə təmas xəttində yerləşən kəndlərdəki evlərlə yanaşı məktəblər və digər obyektlərin yerləşdiyi ərazilərdə əməliyyatları davam etdirir.

Qeyd edək ki, ümumilikdə agentlik aprelin 7-dən, avqustun 8-dək Zərdab, Tərtər, Ağcabədi, Ağdam, Bərdə, Füzuli, Goranboy, Tovuz, Qazax, Ağstafa, Samux, Göygöl, Şəmkir, Cəlilabad, Ucar, Astara rayonlarında, Mingəçevir, Sumqayıt, Gəncə və Bakı şəhərlərində 642 ev və həyətyanı sahə, 2 hərbi hissə, 2 kənd qəbiristanlığı, 5 kənd orta məktəbi, 1 tibb məntəqəsi, 1 metal anbarı, 30 ferma, əkin sahələri, 1 çaxır zavodu və 1 çınqıl karxanası ərazisinə baxış keçirilib, 3 470 ədəd partlamamış hərbi sursat, 15 ədəd piyada əleyhinə mina (PMN), 3 ədəd piyada əleyhinə mina (POMZ-2), 1 ədəd piyada əleyhinə mina (OZM-72) və 24 ədəd tank əleyhinə mina aşkar olunaraq zərərsizləşdirilib.

**Kişilər!!! Axırıncı şans!!!**

**İsrail təbabəti** tətbiq edilir!
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini
**d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, quluncların dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**



# "Mercedes" qaz borusuna çırpıldı - sürücü öldü

**Dünən səhər saatlarında Tovuzda ağır qəza baş verib. Yuxarı Öysüzlü kənd sakini 33 yaşlı Ramiz Məmmədov idarə etdiyi "Mercedes"in sükanına hakim ola bilməyib.**

Avtomobil yol kənarındakı qaz borusuna çırpılıb. Ardından isə Çingiz Yusubovun həyətinə girərək aşıb. Zərbənin gücündən avtomobilin şini qırılaraq bir neçə metr kənara düşüb. Hadisə zamanı ağır bədən xəsarətləri alan sürücü xəstəxanaya aparılarkən dünyasını dəyişib.

Faktla bağlı araşdırma aparılır.




# Bakıdakı Beynəlxalq Müdafiə Sərgisinin vaxtı uzadıldı

**Sentyabr 27-30-da Bakıda "ADEX 2016" 2-ci Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi keçiriləcək. Azərbaycan Müdafiə Sənayesi Nazirliyi və "Caspian Event Organisers" (CEO) şirkəti "ADEX" sərgisinin təşkilatçıları qismində çıxış edir, Müdafiə Nazirliyi isə sərgiyə dəstək verir.**

CEO-dan verilən məlumata görə, müxtəlif ölkələri təmsil edən iri müdafiə müəssisələrinin nümayəndələri, o cümlədən ixtiraçı və mütəxəssislər üçün unikal dialoq platforması olan "ADEX" sərgisi müdafiə sənayesi sahəsində ən yeni və unikal məhsulları peşəkarlara təqdim etmək, eləcə də təcrübə mübadiləsi aparmaq üçün imkan yaradacaq.

Xarici ölkələrdən onlarla rəsmi nümayəndə heyətinin ziyarət edəcəyi sərginin mühüm cəhəti ölkə rəhbərliyi tərəfindən dövlət dəstəyinin göstərilməsidir.

Beynəlxalq nümayəndə heyətləri, habelə xarici şirkətlər tərəfindən "ADEX 2014" sərgisinə göstərilən böyük maraq nəzərə alınaraq, 2016-cı ildə sərginin iş müddəti 4 günə qədər uzadılıb.

Artıq 150-dən çox şirkət "ADEX 2016" sərgisində iştirak edəcəyini təsdiqləyib. İsrail, Çin, Pakistan, Rusiya, Türkiyə və Fransa kimi ölkələr isə sərgidə milli stendlə iştirak üçün ekspozisiya meydançalarını rezervasiya edib. 2016-cı ildə sərgidə iştirak edəcəyini təsdiqləmiş şirkətlər arasında "Aselsan", "CETC", "Damen", "MBDA", "Norinco", "IAI", "Roketsan", "Rosoboronexport", "Thales" və digər şirkətlər var.

Sərginin qeydiyyat sponsoru Türkiyə Müdafiə Sənayesi Katibliyidir. Sərgiyə mətbuat nümayəndələri də böyük maraq göstərirlər. Belə ki, sərginin informasiya dəstəyi aparıcı ixtisaslaşmış jurnallar, veb-saytlar və informasiya agentlikləri tərəfindən təmin olunur. Tədbirin baş informasiya tərəfdaşı Böyük Britaniyanın "IHS Jane's Defence Weekly" dərgisi, Rəsmi Gündəlik "Onlayn" Sərgi Xəbərləri isə Belçikanın "Army Recognition" saytıdır. "Azeri Defence" jurnalı sərginin informasiya tərəfdaşı qismində çıxış edir.

Sərgi çərçivəsində Azərbaycanın milli pavilyonu ölkənin milli müdafiə kompleksini təqdim edəcək. Burada Müdafiə Sənayesi Nazirliyinin müəssisələri müdafiə və xüsusi təyinatlı məhsulları, eləcə də silah-sursat nümunələrini nümayiş etdirəcək. Ümumilikdə, sərgidə aşağıdakı istiqamətlər üzrə əldə olunan nailiyyətlərin nümayiş etdirilməsi planlaşdırılır: quru qoşunları və hərbi-hava qüvvələri üçün texnika və silahlar, hərbi aviasiya silahları, hava hücumundan müdafiə üzrə sistem və vasitələr, xüsusi təyinatlı avadanlıq və vasitələr, informasiya texnologiyaları, kosmik texnologiyalar, ordunun inzibati və texniki təchizatı.

Sərgi layihəsinin özəl xüsusiyyətlərindən biri mühafizə və müdafiə vasitələri, xilasetmə, mühafizə texnikası, sənaye və nəqliyyat təhlükəsizliyi sistemləri, eləcə də informasiya və rabitənin mühafizəsi, müasir yanğın təhlükəsizliyi vasitələri üzrə geniş məhsul spektrinin vahid konsepsiya çərçivəsində tammiqyaslı nümayişidir.

Sərgini dolğun işgüzar proqram müşayiət edəcək. Bura seminar və təqdimatlarla yanaşı, sənaye təyinatlı nazirliklər, istehsalçı şirkətlərin rəhbərləri və sifarişçilərlə çoxsaylı ikitərəfli görüşlər daxildir. "ADEX 2016" sərgisi ən son silah növlərinin nümayiş etdirilməsi və beynəlxalq hərbi-texniki əməkdaşlıq sahəsində yeni müqavilələrin imzalanması üçün mühüm platformaya çevriləcək.

YENİ MÜSAVAT
N 173 (6494) 9 avqust 2016

**Ərəblərin Bakıya kütləvi axınına sosial şəbəkələrdə müxtəlif yöndən yanaşsalar da, paytaxtda iaşə obyektlərinin, kafe və restoranların sahibləri onlardan birmənalı olaraq məmnundurlar. Məsələ ondadır ki, əgər manatın devalvasiyasından sonra Bakının mərkəzində yerləşən brend geyim mağazalarında alıcı qıtlığı yaşanırdısa, indi hər axşam saatlarında mağazalarda kassaların bağlandığı ərəfədə böyük müştəri növbəsi müşahidə olunur. Söhbət etdiyimiz iaşə obyektlərində çalışanlar da təsdiqlədilər ki, ərəblər demək olar ki, gün ərzində bütün qida ehtiyaclarını kafelərdə ödəyirlər. Bu isə onların fəaliyyətlərinə xeyli dəstək olur və xidmət sektorunda bir növ dirçəlmə hiss olunur.**

# Ərəb turistlər xidmət sektorumuzu necə xilas etdilər?

## Ekspert: "Turist axını iaşə obyektləri, mağazalar və digər bu kimi obyektlər üçün də faydalıdır..."



Bundan başqa, ərəb turistlərin Bakıya gəlişindən sonra bir hal da müşahidə edilir. Belə ki, ötən illərdə mövsümlə bağlı 70 faiz endirim edən brend geyim mağazaları artıq bunu 40-50 faiz aralığına endiriblər.

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan **iqtisadi ekspert Fikrət Yusifov** bildirdi ki, həqiqətən də ölkəmizə gələn turistlərin sayında ötən illərlə müqayisədə xeyli artım var və bu xidmət sektoruna da öz müsbət təsirini göstərir: "Paytaxtla bərabər, bölgələrdə də turistlərin sıxlığı müşahidə olunur. Ərəblər son illər bəllidir ki, Türkiyəyə daha çox üz tuturdular. Lakin orada baş verən son məlum olaylar nəticəsində sabitliyin müəyyən qədər pozulmasından sonra daha çox Azərbaycana üz tutmağa başladılar. Çünki Azərbaycanda ictimai-siyasi sabitlik var və eyni zamanda təhlükəsizlik də lazım olan həddədir. Təbii ki, onların ölkəmizə gəlməsi çox müsbət haldır. Əlavə dəyər vergisinin (ƏDV) Hava limanında qaytarılması sistemi ("Tax free") ilə bağlı qəbul etdiyimiz qərar və eyni zamanda bugünlərdə cənab prezidentin vergilərlə bağlı sərəncamı da öz bəhrəsini verəcək. Prezidentin sərəncamına əsasən bu ilin sonuna qədər vergi sadələşmələri aparılacaq. Sərəncama uyğun olaraq, həmçinin bütün giriş-çıxış məntəqələrində ƏDV-nin qaytarılması sistemi məsələsi gündəmə gəlir. Bunlar hamısı turistlərin Azərbaycana gəlməsinin stimullaşdırılması baxımından dövlətin atdığı addımlardır. Digər tərəfdən, bir həqiqət də var ki, bu gün regionda ən sabit ölkə Azərbaycandır. Təbii ki, burada istirahət etmək turistlər üçün çox əlverişlidir ki, axın davam etməkdədir. Bir məqamı da qeyd edək ki, əgər bir mövsümdə Azərbaycana, misal üçün, 1000 adam gəlirsə, növbəti mövsüm onların tövsiyəsi ilə bu say bir neçə qat artır. Bu minvalla turistlərin sayı ötən illərlə müqayisədə xeyli artmışdır. Yaxın gələcəkdə bu sayın daha da artması gözlənilir. Bunlar da yuxarıda da qeyd etdiyimiz kimi, xidmət sektorunun da daima inkişafına təkan verir".

**Ekspert bildirdi ki, turistlərin sayının artırılması üçün bölgələrdə də bu sektorun inkişaf etdirilməsi əsas şərtlərdəndir:** "Turistlər xidmətin keyfiyyətinə, qiymətlərə də çox önəm verirlər. Bu baxımdan, turizm sektorunda qiymət siyasəti sahəsində də müəyyən irəliləyişlər olub və hesab edirəm ki, bu istiqamətdə bir çox işlər də görülməlidir. Ən azından Misirin, Türkiyənin və başqa turist ölkələrinin qiymətlə bağlı təcrübələri öyrənilməlidir. Bütün bunlar öz həllini taparsa, turist sayı da xeyli artacaq. Qeyri-neft sektorunun əsas xətlərindən biri də ölkədə turizmin inkişaf etdirilməsidir. Bunun üçün ölkədə bütün münbit şərait və geniş imkanlar var. Bu da realdır ki, turistlərin axını Azərbaycanda iaşə obyektləri, mağazalar və digər bu kimi obyektlər üçün də faydalıdır. Çünki onlar kifayət qədər bu yerlərdən istifadə edirlər".

**Ekspert ölkədəki bəzi geyim mağazalarında mövsümü endirimlərin olmamasını bu cür izah etdi:** "Onlar hər bir detalı dəyərləndirirlər. Təbii ki, turist axınının çox olduğunu görüb, bundan da faydalanırlar. Hesab edirlər ki, misal üçün, hər hansı bir geyimi baha satmaq olursa, bunu niyə ucuz qiymətə satıb, itkiyə məruz qalım. Endirimi ticarətçi ona görə edir ki, mövsüm üçün nəzərdə tutulan malının qalığını satıb, növbəti mövsüm üçün mal alsın. Əgər satış yaxşıdırsa, endirim də olmur. Bütövlükdə isə hesab edirəm ki, növbəti aylarda qiymətlərdə enmələr müşahidə olunacaq. Xüsusilə də ƏDV-nin alınmasında baş verən dəyişikliklər qiymətlərin ucuzlaşmasına səbəb olacaq".

❑ **Əli RAİS**

# Tüpürmədən əvvəl... yüz dəfə düşünün

## Ən pis vərdişlərdən biri barədə bilmədiklərimiz və onun yaratdığı ağır fəsadlar...

**Tətildə, yay günlərində şəhər gəzintisində ən çox müşahidə etdiyim nədir, bilirsizmi? İnsanların davamlı yerə, dənizə, quma, hər yerə tüpürməsidir. Sanki nəfəs almaq kimi bir ayin. Olmazsa olmaz misalı. Halbuki elə ölkəmizdə yayılan bir çox xəstəliklərin səbəbi elə bu adətin başındadır.**




Ürəkbulandırıcı mövzunun detallarına keçmədən öncə isə deyim ki, dünya xalqları arasında bu adətə az inkişaf etmiş olanlar yiyələniblər. Hətta yaxın qonşularımız arasında olan Türkiyə türklərinin də bu məsələdə bizdən geri qalmadığını deyə bilərik. Yəqin o məşhur lətifəni xatırlayırsınız: "Aya ilk dəfə ayaq basan türk tez başındakı kosmos papağını çıxarıb, yerə tüpürdü..."

Hər şey bu qədər gülməli olsaydı nə vardı ki. Yəqin ki, xatırlayırsınız, Türkiyədə məhz bu xasiyyətə görə həyatını itirən kişi barədə bir dəfə yazmışdıq. Muğla vilayətinin 93 yaşlı sakini Əli Kabaz evinin pəncərəsindən tüpürmək istəyərkən müvazinətini itirərək yıxılıb. Üçüncü mərtəbədən düşən Əli Kabaz xəstəxanaya aparılarkən yolda vəfat edib.

### Bu ölkələrdə tüpürənləri cəzalandırırlar

Digər tərəfdən, xalqımızın adətlərini də unutmaq olmaz. "Çaqqal ulayanda yerə tüpürmək lazımdır" deyir böyüklərimiz. Əks halda, insanın başına nəsə bir pis iş gələ bilərmiş. Bundan başqa, qabağından qara pişik keçəndə də yerə tüpürmək vacib "təhlükəsizlik" qaydası sayılır. Nədənsə hirsləndə, iyrənəndə... də tüpürcəyimiz dadımıza yetişir. Ağızdolusu tüpürürük. Həm də yerə.

Maraqlıdır ki, bəzi ölkələrdə yerə tüpürmək qadağandır. Qazaxıstanın prezidenti Nursultan Nazarbayev dəfələrlə yerə saqqız atanlara və tüpürənlərə xəbərdarlıq edib. Nazarbayev "Son dəfə xəbərdarlıq edirəm, bu insanlar cəzalandırılacaq" deyib. Belə ki, bu ölkədə saqqız çeynəyib yerə atan, tüpürən, ətrafı çirkləndirən və əl-qol hərəkətləriylə ətrafdakıları narahat edənlərə 3 gün həbs və pul cəzası verilməsini təklif edib.

Eyni cəza metodları Sinqapurda da keçərlidir. Bu ölkədə də liftdən ayaqyolu kimi istifadə edən, ictimai yerdə saqqız çeynəyən, onu yerə atan, habelə yerə tüpürən şəxslər cəzalandırılır. Bu cəzanın məbləği təxminən 50 dollara yaxındır.

Osmanlı tarixində ağac və kol diblərinə tüpürmək tövsiyə olunurdu. Bir çox mədəniyyətlərin tarixində tüpürmək üçün otaqlarda xüsusi qab olurdu. Keçmiş rus tarixində, obalarda yaşayanlar əl yuduqları qabın içinə tüpürdülər və sonra onunla əllərini yuyurdular. Padşahlar və xanların tüpürmələri üçün xüsusi qabları vardı. Bu qablar qızıldan, gümüşdən hazırlanırdı. Hətta Osmanlı tarixində hansısa padşaha qızıl tüpürcək qabı hədiyyə edilməsi də arxivlərdə yerini alıb.

### Bir dəfə tüpürürsüzsə.... ətrafa vəba, vərəm mikrobları yayılır

Məsələnin görünən tərəfləri ilə yanaşı, görünməyən, amma həkimlər tərəfindən təhlil olunan tərəfləri də var. Həkimlər müəyyənləşdiriblər ki, insanın tüpürcəyində təxminən 600 fərqli mikrob var. 1 kub sm-lik tüpürcəkdə 250 milyon mikrob var. Əgər tüpürcək sahibi xəstədirsə, bu zaman mikrobların sayı artır.

**Yerə tüpürmə yolu ilə insana keçə biləcək xəstəliklərə gəlincə, bunlardan birincisi və ən çox bilinəni vərəmdir.**

**1. Vərəm** - illər boyu varlığı bilinən bir xəstəlikdir. Tüpürmək, asqırmaq, öskürmək, bəlğəmlə başqa insanlara hava-damcı yolu ilə keçir. Balaca uşaqlarda, yaşlı insanlarda hətta ölümə səbəb olur.

**2. Xroniki bronxit** - bu xəstəlik də səssiz başlayıb, yavaş bir irəliləmə göstərərək, illər boyu davam edir və sonunda ağır tənəffüs çatışmazlığına gətirən bir xəstəlikdir. İki ildən çox bir müddətdə zaman-zaman yenilənmələrlə aylar boyu öskürək və bəlğəmin müşayiəti ilə davam edir.

Bundan başqa, qrip də yerə tüpürmənin ağır nəticələrindən biri sayılır. Daha çox payız və qış aylarında geniş yayılır. Yerə tüpürmə cəmiyyətdə bu xəstəliyi sürətləndirən əsas amillərdən biridir.

Psixoloqlar müəyyənləşdirib ki, yerə tüpürmək əsəbi daha zəif olan insanlara xasdır. Belə ki, bununla öz aqressiyasını, bəzən hirsini, reaksiyasını topluma çatdırmaq istəyənlər bu vasitədən istifadə edirlər. Amma bu mənzərəni görənlər üçün əks hadisə baş verir. Bu mənzərə başqalarını diksindirir, əsəbilik və stress yaradır. Nəticədə cəmiyyət təmizlik mədəniyyəti olmayan bir cəmiyyətə çevrilir. Və bunun nəticəsidir ki, bu hal daha az inkişaf etmiş ölkələr üçün xarakterikdir.

### Xəstəlik varsa, çarəsi də var - tüpürcək torbaları

Müasir tarixdə isə tüpürcəyi qadağan edən ölkələrin sırası qısa deyil. Pekin olimpiadası öncə şəhərdə məhz yerə tüpürənlərə etiraz olaraq bir kampaniyaya başlanmışdı. Çünki Çində də yerə tüpürmək böyük problem sayılır. Buna görə də Pekin Etk İnkişaf Ofisi bir neçə il belə təbliğat kampaniyası apardı. Yerə tüpürmə vərdişindən qurtula bilməyənlər üçün isə yardımçı tədbirlər düşünüldü. Belə ki, şəhər bələdiyyəsinin xüsusi geyimli işçiləri - onlara bəlğəm keşikçiləri deyirlər - küçələrdə gəzərək pulsuz tüpürcək torbaları paylayırdılar. Torbaları paylayan işçilər çinlilərə deyirdilər ki, ondan istifadə edən kimi zibil qutusuna atsınlar.

Türkiyədə isə yerə tüpürmək inzibati cəza sayılır və buna görə insanlar milli valyuta ilə desək, 25 manat məbləğində cəzalandırılır.

Avstriyada xüsusi tüpürcək qutuları var - eynən zibil qutuları kimi. İnsanlar hər 50 metrdən bir bu qutularla qarşılaşır. Tüpürcək ehtiyacı olan insanlar bu qutudan istifadə edir.

❑ **SEVİNC**

YENİ MÜSAVAT

Son səhifə

N 173 (6494) 9 avqust 2016

# 6 ayda 40 kilo çəki itirib

34 yaşındakı ingilis Laura Rundle belindən əməliyyat olunandan sonra çoxlu sayda qazlı və şirin içkilər içib, hazır yeməklər yeyib. Nəticədə 140 kiloya çatan 2 uşaq anası Randl artıq çəki səbəbi ilə özünü depressiyada hiss edib və bu səbəbdən də daha çox yemək yeyib. Amma müəyyən çəkidən sonra dostları və həyat yoldaşı ilə bayıra çıxmaqdan utanmağa başlayıb. Ona görə də çəki verməyi qarşısına məqsəd qoyub. Gündə 400 kalori alan qadın 600 kalorilik bir dietaya başlayıb. Nəticədə 6 ayda 40 kilo çəki itirib və son nəticədə arzuladığı çəkini əldə edib.





## Su içməsəniz, beyniniz işləməyəcək

İngiltərədə aparılan araşdırmalar nəticəsində məlum olub ki, su beynin fəaliyyətini gücləndirir. Mütəxəssislərin fikrincə, insanlar önəmli bir iş görməzdən əvvəl onların beyinləri daha surətlə çalışar. Təcrübədə iştirak edən adamlara bir həftə ərzində məntiqlə bağlı suallar verilib. Nəticədə məlum olub ki, sualları cavablamadan əvvəl su içən adamlar cavabları daha tez tapırlar. Su içməyənlər isə cavablar haqda daha çox düşünürlər. Araşdırmanı aparan professor Karolina Edmands su içən adamların beyninin digərlərinə nisbətən 14 faiz daha sürətlə çalışdığını deyirlər.



## Kim ona ər tapsa, 10 min dollar qazanacaq

Bu qadın ona ər tapana pul verəcək. Şeril Sandberq adlı qadın onu gələcək əri ilə tanış edənlərə 10 min dollar verəcəyi barədə yaxınlarına, dostlarına və tanışlarına məktublar göndərməyə başlayıb. O bu qərara növbəti sevgi romanını oxuyandan sonra gəlib.

O, hətta öz planını da cızıb: **1.** Sən məni gələcək ərimlə tanış edirsən. **2.** Mən ərə gedirəm. **3.** Sən mənim toy günümdə 10 min dollar alırsan.

Artıq onun təklifinə ciddi reaksiyalar da gəlməyə başlayıb. Belə ki, bir gün ərzində qadın 100-ə yaxın görüş təklifi alıb.

# Qum deyib keçməyin, faydaları çoxdur

Dəniz və Günəş vannası qədər insan bədəni üçün qum da çox faydalıdır. Tətildə həm gənc, həm də sağlam qalmaq üçün qumun faydalarından istifadə edin. İsti qum xeyir-dir deyib saatlarla qumdan çıxmayan insanlar var. Dəri yanıqları, allergik reaksiyalar, Günəşdən gələn şüalar qumdan gələn xeyri heçə endirir. Təzyiq, şəkər, ürək xəstəliyi olan insanların ayaqlarını quma basdırması sağlamlığa daha böyük ziyan vura bilər. Ən dəhşətlisi isə iflic ola bilərlər. Quma basdırılma da həkim nəzarəti altında olmalıdır. Ümumiyyətlə, insanlar elə düşünür ki, ayaqların quma basdırılması ağrıları azaldır. Müəyyən qədər azaldır, amma qum yeyilmiş, yaxud zədələnmiş oynaqları bərpa etmir. İslanmış dəniz qumunda gəzmək qan damarlarının genişlənməsinə səbəb olur və qan təzyiqini tənzimləyir, revmatizm xəstəliyinin müalicəsi üçün effektlidir. Bəzi dəri xəstəliklərini müalicə edir. Təbii pilinq təsiri var. Yorğunluğu aradan qaldırır. Antidepressan təsirə malikdir.



## Üzürdü, başına göydən kişi düşdü

Amerikanın Montana ştatındakı Klark Fork çayında ilginc olay baş verib. Lenta.ru xəbər verir ki, Endi Hill adlı qadın çayda, içi hava ilə doldurulmuş döşəkdə üzdüyü zaman körpüdən üstünə bir kişi düşüb. Nəticədə Hillin hər iki ayağında sınıqlar, habelə bədəninin digər yerlərində zədələr yaranıb. Qadının dediyinə görə, üstünə düşən kişi tez-tez üzr istəyərək, onu sahilə doğru aparıb. Endini ən yaxın xəstəxanaya aparıblar və yaxın müddətdə onun əlil arabasında hərəkət edəcəyi gözlənilir.

Endi bildirib ki, bu olayın mənfi tərəfləri ilə yanaşı, gülməli cəhətləri də var. Hadisədən zərər çəkməsi ilə yanaşı, qadın bundan sonra hamıya danışa biləcəyi ilginc, gülməli bir qəzanın qurbanı olub. Amma körpüdən hoppanan kişinin bunu niyə etməsi bilinmir. Onu məhkəmə perspektivi gözləyir.

## Qoroskop




**QOÇ** - Ulduzların düzümü şəxsi büdcənizdə artım olacağını bəyan edir. Bu istiqamətdə bütün səylərinizi birləşdirməlisiniz. Nahardan sonra isə səhhətinizə diqqət ayırmalısınız.

**BUĞA** - Durumunuzdan bəlli olur ki, məqsədlərinizi reallaşdırmaqda sizə qarşı maneələr çoxdur. Amma narahat olmağa dəyməz. Çünki enerji və gücünüz sizi qələbəyə yaxınlaşdıracaq.

**ƏKİZLƏR** - Maraqlı görüşlər yolunuzu gözləyir. Qarşıdakı həftədə atacağınız mühüm addımları reallaşdırmaq üçün bu gündən maksimum bəhrələnməlisiniz. Sevgi məsələlərində daha səmimi olun.

**XƏRÇƏNG** - İşgüzar danışıqlarda iştirak etmək üçün sərfəli vaxtdır. Bütün müsahiblərniz sizinlə razılaşacaq. Amma gərək siz də reallıqdan yararlanasınız. Kimisə aldatmaq fikrinə düşməyin.

**ŞİR** - Saat 14-ə qədər ümumi əhvalınız aşağı səviyyədə olsa da, sonrakı müddətdə vəziyyət xeyrinizə olacaq. Boş və mənasız şeylərə görə çılğınlıq etməyin. Təmkinli olmağa çalışın.

**QIZ** - Ulduzlar ümumi gərginlikdən xəbər versə də, vəziyyətdən çıxacaqsınız. Bunun üçün ünsiyyətdə olduğunuz insanlarla mübahisələrə, o cümlədən işlə bağlı uğursuzluqlara əhəmiyyət verməməlisiniz.

**TƏRƏZİ** - Əgər uzaq səfərə çıxmaq planınız varsa, onu təxirə salmayın. Maliyyə çətinliyiniz olsa belə, borc götürüb yola çıxın. Çünki bu addımı atmaqla, gələcək uğurlarınıza təkan verəcəksiniz.

**ƏQRƏB** - Yalnız şəxsi büdcənizi artırmaq istiqamətində müəyyən uğurlara yiyələnə bilərsiniz. Qalan məsələlərdə isə risk etməyə dəyməz. Axşamüstü sövdələşmələrə getsəniz, aldanacaqsınız.

**OXATAN** - Astroloji göstəricilər bu təqvimin sizin üçün o qədər də rahat keçməyəcəyini bəyan edir. Səhhətinizlə bağlı problemlərin qabarma və bəzi cəhdlərinizin boşaçıxma ehtimalı var.

**OĞLAQ** - Təəssüf ki, Göy qübbəsi gərgin bir gün yaşamaq ehtimalınızdan xəbər verir. Bu amili nəzərə alıb hər addımda ayıq-sayıqlığınızı artırmalısınız. Haqlı olsanız da, mübahisələrə girişməyin.

**SUTÖKƏN** - Şəxsi büdcənizdə müəyyən çətinlikləriniz olsa da, gün ərzində rastlaşdığınız hadisələr əhval-ruhiyyənizi yüksəldəcək. Çalışın ki, qətiyyətsiz hərəkətlərinizə son qoyasınız.

**BALIQLAR** - Sinoptiklərlə heç də həmişə razılaşmayan ulduzlar bu təqvimin sərin keçəcəyini bəyan edir. Odur ki, planlarınızı təxirə salmayın. Əsas enerjinizi istirahətə və sevgiyə yönəldin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## 18 ay qızıl axtardı, tapdı, üzük hazırlatdı, sevdiyi qıza evlilik təklif etdi



Şotlandiyada evlənəcəyi qıza orijinal evlilik üzüyü hazırlamaq üçün 18 ay boyunca qızıl axtaran adam sonunda məqsədinə çatıb. Tapdığı qızıllarla sevgilisinə üzük hazırlayan gənc adam romantik şəkildə ona evlənmə təklif edib . Sevdiyi qız da bunu qəbul edib. Olayın şahidləri deyirlər ki, bununla da evlilik təkliflərində yeni mərhələ başlanıb. Artıq qızlar öz sevdiklərindən orijinal üzük tələb edəcəklər.

**Səhifəni hazırladı: SELCAN**

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750